QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 080 (4822) **2 may** 2015-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uğurlu əməkdaşlıq mövcuddur

*Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Valyuta Fondunun icraçı direktoru müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2



9

## Mübariz Qurbanlı: "Bunu heç bir cərəyan, heç bir qüvvə dəyişə bilməz"

Bizim multikultural və tolerant cəmiyyətimiz Avropada da təşviq edilə bilər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, bunu Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə səfərdə olan İtaliyanın Coğrafiya Cəmiyyətinin nümayəndələri ilə görüşündə deyib. Görüşdə İtaliya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafından bəhs edilib. M.Qurbanlı qonaqlara Azərbaycanda mövcud olan tolerantlıq ənənələri, multikultural mühit haqqında məlumat verib: "Dünyanın tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilməkdə olan Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Dünyəvilik və tolerantlıq Azərbaycan xalqının təfəkkür tərzidir. Azərbaycanda bütün konfessiyalar dinc şəraitdə fəaliyyət göstərir. Bunu heç bir cərəyan, heç bir qüvvə dəyişə bilməz". O, həmçinin Azərbaycandakı dini tolerantlığın təşviqi məqsədilə dövlət tərəfindən görülən işlər barədə məlumat verib. İtaliyalı qonaqlara ölkəmizdəki dini durum, dini icmalar, eləcə də məscid və ziyarətgahlar, tarixi abidələrlə bağlı ətraflı məlumat verilib.

**41** gün qaldı

Baku 2015
1st EUROPEAN GAMES

Sizi "Bakı-2015" İlk Avropa Oyunlarına dəvət edirik!

## Ölkəmizin milli rəmzi olan alov Olimpiya hərəkatının gücünün təcəssümüdür

3

## XİN-dən xəbərdarlıq: Dağlıq Qarabağa səfər edənlər barəsində cinayət işi açılacaq



4

## İlk Avropa Oyunlarının Azərbaycanda təşkil olunması möhtəşəm hadisədir



4

## NED təşkilatı Con Kerrinin yaratdığı anti-Azərbaycan mərkəzinin tərkib hissəsidir



7

14

**"Elə bilirsiniz Con Kerri başınızı sığallayacaq?!"**



7

**Amerikalı jurnalist: "ABŞ növbəti iğtişaşlara hazır olmalıdır"**



16

**PSJ "Yuventus"la 80 milyon avroya anlaşdı**



# Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uğurlu əməkdaşlıq mövcuddur

*Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Valyuta Fondunun icraçı direktoru müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Beynəlxalq Valyuta Fondunun icraçı direktorunun müavini Mitsuhiro Furusavanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı, tədbirə hazırlığın yüksək səviyyədə təşkil edildiyi bildirildi. Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin keçirilməsi üçün əlverişli məkan və bu istiqamətdə yaxşı təcrübəyə malik olduğu məmnunluqla qeyd edildi. Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzunmüddətli uğurlu əməkdaşlığın önəmi vurğulandı və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Macarıstan Azərbaycanla əlaqələrə böyük önəm verir

*Prezident İlham Əliyev Macarıstanın Azərbaycandakı səfirini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Macarıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jolt Çutoranı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin səviyyəsinin razılıq doğurduğu bildirildi, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu. İki ölkə arasında əməkdaşlığın inkişafı üçün yaxşı potensialın olduğu vurğulandı və münasibətlərimizin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə edildi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 419 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nda dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

Prezident İlham Əliyev "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 8 aprel tarixli 97-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 424 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

Prezident İlham Əliyev "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 616-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 may tarixli 895 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

Prezident İlham Əliyev "Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi və "Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsinin formasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 129 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

Prezident İlham Əliyev Saatlı rayonunun Saatlı-Sarıcalar-Qara Nuru-Şirinbəyli-Fətəlikənd-Azadkənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Ölkəmizin milli rəmzi olan alov Olimpiya hərəkatının gücünün təcəssümüdür

## İlham Əliyev: “İlk Avropa Oyunlarının məşəli ölkəmizin bütün şəhərlərinə gətiriləcək, bütün ölkəmizi dolaşacaq ki, Azərbaycan xalqı bu gözəl idman və dostluq bayramını qeyd etsin”

***Bakı bu gün Birinci Avropa Oyunlarına bir addım da yaxınlaşdı. Hər ötən gün bu möhtəşəm tədbir həyəcanını daha da artırır. Artıq gələn ay paytaxtımız dünya ölkələrindən gələn qonaqları, idmançıları qəbul edəcək. Onların hər birinin yüksək səviyyədə təmini, oyunların dünya standartlarına uyğun məkanlarda təşkili olduqca məsuliyyətlidir.***



Oyunlar zamanı ölkəmizə 10 minədək idmançının, məşqçinin, rəsmi şəxsin, jurnalistin gələcəyi gözlənilir. Avropa Oyunlarında həm Azərbaycandan, həm də qitə ölkələrindən 16 mindən çox könüllü iştirak edəcək. Yarış günlərində Avropanın, eləcə də dünyanın aparıcı telekanalları Bakıdan xəbərlər yayacaq, paytaxtımız növbəti dəfə dünya idmanının mərkəzinə çevriləcək. Birinci Avropa Oyunlarını 600-dən artıq beynəlxalq və yerli media nümayəndəsi işıqlandıracaq. Tədbiri 100-dən artıq ölkəyə yaymaq üçün 43 şirkətə yayım hüququ verilib ki, bununla da oyunları Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika və Avstraliyada izləmək mümkün olacaq.

Dünya miqyasında nüfuz sahibi olan və bu günə qədər təşkil olunan yarışların hər birinin əks-sədasını qitələrdən eşidən Azərbaycan Birinci Avropa Oyunlarını da öz adına uyğun şəkildə keçirməyi qarşısına məqsəd qoyub.

### BİRİNCİ AVROPA OYUNLARININ MƏŞƏLİ 47 GÜN ƏRZİNDƏ AZƏRBAYCANIN HƏR BİR GUŞƏSİNİ GƏZİB-DOLAŞACAQ

Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş verdi. Bakıda birinci Avropa Oyunlarının məşəli alovlandırıldı. Bu hadisə ilk Avropa Oyunlarının həyəcanının başlanğıc günü kimi tarixə düşür. Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan “Atəşgah”dan başlayır. Birinci Avropa Oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, oyunların açılış mərasimində Bakı Olimpiya Stadionuna gətiriləcək.

Bildiyimiz kimi, oyunlarin məşəlini alovlandırması Azərbaycan Prezidenti Cənab İlham Əliyevin, ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin iştirakı ilə baş tutub. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb edilib və hər regionda “Alov festivalı”nın keçirilməsi nəzərdə tutulub. Məşəl yer üstündə avtobus, funikulyor, velosiped, yer altında Bakı metrosu, suda qayıq, havada isə təyyarə ilə daşınacaq. Məşəl iyunun 8-də paytaxtdakı idman arenalarında, 9-da isə İçərişəhərdə gəzdiriləcək. İyunun 10-u məşəl proqramının son günü olacaq və Bakıya gətirilənədək təxminən 5500 kilometr məsafə qət edəcək. 660 millimetr hündürlüyü olan məşəlin gövdəsi “Bakı-2015” brendində yer alan nar ağacını xatırladır.

### İLK AVROPA OYUNLARININ MƏŞƏLİNİN ALOVLANDIRILMASINA DÜNYA KİV-İ GENİŞ YER AYIRIB

İlk Avropa Oyunları məşəlinin alovlandırılması dünya KİV-nin diqqət mərkəzindədir. Belə ki, Rusiyanın bir neçə xəbər portalı bu hadisəyə geniş yer ayırıb. Məqalələrdə qeyd olunur ki, aprelin 26-sı ilk Avropa Oyunları həyəcanının başlanğıc günü kimi tarixə düşüb:”4 ildən bir keçiriləcək oyunlar Bakıda iyunun 12-dən 28-dək baş tutacaq. Oyunlarda 20 idman növündə 253 medal üzrə mübarizə aparılacaq. Təşkilat Komitəsi və “Bakı-2015” ilk Avropa Oyunları Əməliyyat Komitəsinin peşəkar heyəti qarşısına qoyduğu planları reallığa çevirmək üçün 27 ay ərzində yorulmadan çalışıb”.

İtaliya Milli Olimpiya Komitəsinin rəsmi internet səhifəsində “Bakı-2015” məşəlin səyahəti başladı” sərlövhəli yazıda tədbir haqqında ətraflı məlumat verilir. Qeyd olunur ki, Bakıdakı qədim od məbədi olan “Atəşgah”da keçirilmiş mərasimə Azərbaycan Prezidenti İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və başqaları qatılıblar.

Pakistanın “Centreline” jurnalında və “Diplomatic News Agency” İnformasiya Agentliyində “İlk Avropa Oyunları Bakıda keçiriləcək” sərlövhəli məqalələrdə 2015-ci il iyunun 12-28-də Azərbaycanın paytaxtı Bakıda ilk Avropa Oyunlarının keçiriləcəyi bildirilir. Diqqətə çatdırılır ki, bu haqda qərar 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin (AOK) iclasında keçirilən gizli səsvermə zamanı qəbul edilib. Məqalələrdə Azərbaycan hökumətinin oyunlara ciddi hazırlaşdığı bildirilir, Prezident İlham Əliyevin bu mühüm idman tədbirini “tarixi hadisə” adlandırdığı oxucuların diqqətinə çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyev demişdir:”Bu məşəl ölkəmizin bütün şəhərlərinə gətiriləcək, bütün ölkəmizi dolaşacaq ki, Azərbaycan xalqı bu gözəl idman və dostluq bayramını qeyd etsin”.

Müəllif bildirir ki, oyunlara hazırlıqla bağlı 2013-cü il yanvarın 17-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın sədrliyi ilə Təşkilat Komitəsi yaradılıb. Mehriban Əliyevanın mötəbər beynəlxalq tədbirlərin keçirilməsində böyük təcrübəsi olduğunun vurğulandığı yazılarda Azərbaycanın birinci xanımının 2012-ci ildə Bakıda “Eurovision” Mahnı Müsabiqəsinin hazırlıq işlərinə rəhbərlik edərək bu tədbirin böyük uğurla təşkilini təmin etdiyi diqqətə çatdırılıb. Təşkilat Komitəsinə nazirlər, dövlət məmurları, olimpiya çempionları daxildir. Hazırlıq işlərinə 2012-ci ildə Londonda keçirilən Yay Olimpiya Oyunlarının təşkilində iştirak edən ekspertlər cəlb olunub.

Yazılarda, həmçinin ilk Avropa Oyunlarına hazırlıq işləri, tikilmiş idman obyektləri haqqında məlumat verilir. Vurğulanır ki, 69 min nəfər tutumu olan Bakı Olimpiya Stadionunda möhtəşəm açılış və bağlanış mərasimləri keçiriləcək. Ümumiyyətlə, ilk Avropa Oyunlarında 50 ölkədən 6 min atlet mübarizə aparacaq. İdmançıların və jurnalistlərin rahatlığı, onların sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılıb. Oyunların proqramına salınan idmanın 20 növündən 16-sı Olimpiya, 4-ü isə qeyri-Olimpiya növləridir. İdmanın bəzi növləri üzrə oyunlarda medal qazanan atletlər Rio-de-Janeyroda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya qazanacaqlar.

İlk Avropa Oyunlarının idmanın təbliği, ölkəmizin tanınması baxımından böyük önəm kəsb edir. İlk Avropa Oyunlarından sonra - 2016-cı ildə Azərbaycanda Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, “Avro-2020” çempionatının final mərhələsinin dörd qarşılaşması keçiriləcək.

### “BAKI-2015” BRENDİNDƏ YER ALAN NAR AĞACININ 50 ÇƏYİRDƏYİ OYUNLARDA İŞTİRAK EDƏN ÖLKƏLƏRİN SAYINI TƏMSİL EDİR

Bakıda birinci Avropa Oyunlarının məşəlinin alovlandırılması, eləcə də Azərbaycanın və dünyanın idman tarixində əlamətdar olan hadisə “Euronews” kanalında da yan ötməyib. “Euronews” kanalında Bakıda birinci Avropa Oyunlarının məşəlinin alovlandırılması ilə bağlı yayımlanan süjetdə vurğulanır ki, Olimpiya ənənəsinə uyğun olaraq, qədim od məbədi olan “Atəşgah”dan başlayan estafet maraqlı bədii proqramla müşayiət edilir. Süjetdə birinci Avropa Oyunlarının məşəlinin səyahətinin başlaması nümayiş olunur. Maraqlı bir fakt da diqqətə çəkilib. Belə ki, məşəlin gövdəsi “Bakı-2015” brendində yer alan nar ağacını xatırladır. Alovu qoruyan mis başlıq da nar formasındadır. Onun 50 çəyirdəyi oyunlarda iştirak edən ölkələrin sayını təmsil edir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Abdullah Gül Heydər Əliyev Mərkəzində olub

Türkiyə Respublikasının 11-ci Prezidenti Abdullah Gül mayın 1-də Heydər Əliyev Mərkəzini ziyarət edib. AZƏRTAC xəbər verir ki, qonaq əvvəlcə Mərkəzdəki Heydər Əliyev Muzeyi ilə tanış olub. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini, ölkə tarixində xidmətlərini, həyata keçirdiyi beynəlxalq miqyaslı layihələri özündə əks etdirən foto və videomateriallara, eksponatlara baxıb. Abdullah Gül, həmçinin ölkəmizin tarixini və mədəni irsini əks etdirən "Azərbaycan inciləri: tarixin axarında", "Mini Azərbaycan" sərgilərinə baxıb, eləcə də Mərkəzin qeyri-adi gözəlliyə və akustikaya malik Auditorium zalında olub.





Türkiyənin sabiq Prezidenti Mərkəzin xatirə kitabına ürək sözlərini yazıb. "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adına layiq Mərkəzi ziyarət etməkdən məmnunluq duyuram. Mərkəzdə yer alan sərgilərdə Azərbaycan mədəniyyətinin, tarixinin və xüsusilə də Heydər Əliyevin Azərbaycana göstərdiyi çox dəyərli xidmətlərin ən gözəl şəkildə əks etdirildiyini məmnuniyyətlə müşahidə etdim. Bu sərgilərdə, eyni zamanda, ortaq mədəniyyətimizə və tariximizə, qardaşlıq bağlarımıza aid izlər də tapdım", - deyə Abdullah Gül qeyd edib.

# XİN-dən xəbərdarlıq: Dağlıq Qarabağa səfər edənlər barəsində cinayət işi açılacaq

Azərbaycanın Ermənistan tərəfindən işğal edilən ərazilərində yaradılmış qondarma rejimin keçirdiyi qanunsuz "parlament seçkiləri" Azərbaycanın Konstitusiyası, qanunları və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Bunu XİN-nin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Azərbaycanın işğal olunan ərazilərində keçirilən qanunsuz "parlament seçkiləri" və bu seçkilərdə "müşahidəçi" kimi iştirak edən şəxslər barəsində məsələləri şərh edərkən deyib. H.Hacıyev bildirib ki, bu qanunsuz seçkilər ilə əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən fevralın 27-də bəyanat verilib: "Azərbaycan ərazisində siyasi iradənin seçki vasitəsilə ifadəsinin legitim əsasını yalnız Azərbaycanın Konstitusiyası və qanunları təşkil edir:



"ATƏT Minsk Qrupunun həmsədrlərinin sülh sazişi üzərində işə başlamaq üçün etdiyi çağırışlarına məhəl qoymayaraq, Ermənistan tərəfdən "seçki" adı altında atılan bu təxribatçı addım yalnız danışıqlar prosesinə xələl gətirmək və Azərbaycana qarşı işğal və təcavüzü pərdələmək məqsədi daşıyır.

Beynəlxalq ictimaiyyət tərəfindən bu qeyri-qanuni "seçkilər" pislənilir, qanunsuz hesab edilir və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dəstək ifadə olunur. ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən aprelin 30-da verilən bəyanatda bu seçkilərin tanınmadığı bir daha vurğulanır.

İşğal olunan Azərbaycan ərazilərində Ermənistan tərəfindən təşkil olunan bu "seçkilərdə" öz-özünü "müşahidəçi" adlandıran bəzi marqinal siyasi şəxslərin bu kimi davranışı Azərbaycan qanunlarının kobud şəkildə pozulması kimi qiymətləndiriləcək. Özü-özünü "müşahidəçi" elan edən bu şəxslərin fəaliyyəti işğal, təcavüz və Azərbaycan xalqına qarşı törədilən qanlı etnik təmizləmənin nəticələrinin təşviqinə xidmət edir. Slovakiya vətəndaşı Frantişek Mikloşkonun halında olduğu kimi, işğal olunan ərazilərə qanunsuz səfər edən və Azərbaycanın qanunlarını kobud şəkildə pozan bu kimi özü-özünü "müşahidəçi" elan edən şəxslərə münasibətdə də cinayət təqibinin başlana biləcəyi istisna deyildir. Slovakiya vətəndaşı F.Mikloşko barəsində əməliyyat-istintaq hərəkətləri davam etdirilir və onun barəsində İnterpol vasitəsilə axtarış verilib".

# Sabir Rüstəmxanlı: "ABŞ-ın niyyəti tamamilə ayrıdır"

"ABŞ-Azərbaycan rəsmi münasibətləri ikitərəfli əməkdaşlıq səviyyəsindədir. Amma buna baxmayaraq, ABŞ-ın ölkəmizə qarşı təzyiqləri səngimək bilmir. Bu da ondan irəli gəlir ki, ABŞ Konqresində, Senatorluğunda erməni lobbisinin təsiri altında olan, qeyri hökumət təşkilatlarının diktəsi ilə oturub-duran siyasilər çoxdur". Bu fikirləri SİA-ya millət vəkili, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı Con Kerrinin anti-Azərbaycan kampaniyasına rəhbərlik etməsilə bağlı yayılan məlumatları şərh edərkən deyib. Millət vəkili qeyd edib ki, hər bir siyasətçi fərqli düşünə, fərqli mövqe sərgiləyə bilər: "Con Kerri kimi insanların fikirləri ümumi bir ölkənin fikri demək deyil. Bu kimi məsələlərə həddindən çox fikir verməməliyik. Dünyada ikili standartlar hökm sürür, islama, islam ölkələrinə qarşı sanki bir gözdənsalma prosesi üçün cəbhə yaradılıb. İslam dünyasına qarşı edilən sayğısızlıqlar, etimadsızlıq bu günün deyil, min il əvvəlin hadisəsidir. Bu siyasət illərdir davam edir ki, onun da bir tərəfi Vatikanda, digər bir tərəfi isə bu kimi dövlətlərin paytaxtlarındadır. Bundan qaçmaq və bunun qarşısını



almaq mümkün deyil. Bu nöqteyi nəzərdən hədəfə çevrilməmək üçün az bəhanələr verməliyik. Yəni, Avropanın sərgilədiyi demokratik dəyərlərin bir çoxu islam ölkələrində vaxtilə mövcud olsa da, bu dəyərlərə sadiq çox az ölkələr var. Ona görə də, dəyərlərimizi hamıdan artıq qorumalıyıq ki, heç kimin deməyə sözü qalmasın". Sabir Rüstəmxanlı həmçinin onu da qeyd edib ki, ABŞ-da bəzi dairələrin, təşkilatların islam ölkələrinə qarşı, o cümlədən də Azərbaycana niyyətləri tamamilə ayrıdır: "ABŞ bütün islam dünyasını özündən asılı vəziyyətə salmaq istəyir ki, bu da bu cür hadisələrlə nəticələnir. Qərbin Şərqi anlamamaq, duymamaq prinsipindən irəli gələn mövqe yürüdülən məkrli siyasətin bir parçasıdır. Onlar hansı mövqedən çıxış edirlər etsinlər əsas odur ki, ölkəmizin daxilində münasibətləri düzgün qurmalıyıq. Millətlə dövlət birgə olsa, vətəndaş həmrəyliyi olsa, bu məsələlərin ölkəmizə təsiri minimuma enər. Düşünürəm ki, işıqlı gələcəyə doğru irəliləyən Azərbaycan hər zaman olduğu kimi, bu təzyiqlərə də öz lazımi, adekvat, düzgün cavabını verməyə nail olacaq".

## Mübariz Qurbanlı Böyük Britaniya XİN-in Cənubi Qafqaz bölməsinin rəhbəri xanım Emma Beynz ilə görüşüb



Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Mübariz Qurbanlı mayın 1-də Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz bölməsinin rəhbəri xanım Emma Beynz ilə partiyanın mənzil qərargahında qəbul etmişdir. Görüşdə ictimai-siyasi münasibətlər, Yeni Azərbaycan Partiyasının parlament seçkiləri ərəfəsində həyata keçirdiyi layihələr və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Böyük Britaniyanın Azərbaycandakı səfirinin müavini Stiven Makkornik görüşdə iştirak etmişdir.

## İlk Avropa Oyunlarının Azərbaycanda təşkil olunması möhtəşəm hadisədir



İlk Avropa Oyunlarının Azərbaycanda təşkil olunması möhtəşəm hadisədir. Azərbaycanda mükəmməl idman infrastrukturunun yaradıldığını bilirəm. Ölkəniz "Bakı-2015" ilk Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi edəcək. Bu sözləri Avropa Ədalətli Oyunlar Hərəkatının prezidenti Kristian Hinterberqer AZƏRTAC-a müsahibəsində deyib. Kristian Hinterberqer bildirib ki, ilk Avropa Oyunları Olimpiya Oyunlarının yığcam modelidir. "Bakı-2015"in idman proqramı da demək olar ki, Olimpiya Oyunları ilə eynidir. Bir neçə qeyri-Olimpiya idman növünün "Bakı-2015"in proqramına salınması isə uğurlu addımdır. Ümid edirəm ki, ilk Avropa Oyunları maraqlı olacaq və azarkeşlər çoxnövlü idman yarışından zövq alacaqlar. "Fair play"in ilk Avropa Oyunlarının ayrılmaz hissəsi olacağını bildirən Kristian Hinterberqer ölkəmizdə bu sahədə əldə edilən uğurları və həyata keçirilən layihələri yüksək qiymətləndirib.

## Albaniyanın sabiq prezidenti: "İlk Avropa Oyunları Azərbaycanın bütün aspektlərdə inkişafına mühüm töhfədir"



"İlk Avropa Oyunları Azərbaycan üçün böyük nailiyyətdir. Bu, Azərbaycanın inkişafının, dünyada sülhə və sabitliyə töhfəsinin göstəricisidir". Bu barədə Trend-ə Albaniyanın sabiq prezidenti Sali Berişa deyib. S.Berişa qeyd edib ki, Bakı Avropanın idman paytaxtına çevriləcək və bütün dünyanın diqqəti Azərbaycana yönələcək: "Doğrudan bu böyük uğurdur və Azərbaycanın dünyada ən böyük təqdimatıdır". S.Berişa vurğulayb ki, İlk Avropa Oyunları Azərbaycanın bütün aspektlərdə inkişafına mühüm töhfədir: "Bu Oyunlar həm siyasi, həm də iqtisadi baxımdan ölkəyə böyük faydalar gətirəcək. Beynəlxalq aləmdə Azərbaycana göstərilən etimad daha da artacaq və ölkə iqtisadiyyatı, xüsusən də turizm sektoru yalnız indi deyil, həm də gələcəkdə bunun bəhrəsini görəcək". S.Berişa həm Azərbaycana, həm də Oyunlarda iştirak edəcək bütün idmançılara uğurlar arzu edib.

*"Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövr ərzində zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır".*

**Prezident İlham Əliyev**

# Ulu Öndər HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜASİR İNKİŞAF YOLU

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənalı həyat fəlsəfəsinin əsas qayəsi xalqın, Vətənin taleyini düşünmək, onu inkişaf etdirmək olub. Azərbaycanın, doğma xalqının xoşbəxtliyi üçün varlığını əsirgəməyən Ulu Öndər Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərib, ölkəsini bəlalardan qurtarmağı bacarıb.

Ulu Öndərin ideyaları Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyət proqramı, strategiya, dövlət konsepsiyasıdır. Azərbaycanın son illərdə əldə etdiyi uğurların, iqtisadi qüdrətinin elmi-fəlsəfi mahiyyəti müəyyən olunmuş güclü və uzaqgörən iqtisadi strategiyanın məntiqi nəticəsi kimi səciyyələndirilə bilər. Ulu Öndər Heydər Əliyevin siyasi obrazı quruculuğun, iqtisadi dirçəlişin, sabitliyin təminatçısı kimi xarakterizə olunur. Onun Azərbaycana rəhbərlik etdiyi dövr zəngin bir siyasi xəzinəyə çevrilmişdir. Onun çevik iş manerası və gərgin əməyi fəlsəfi məfkurəsinin parlaq və təkrarolunmaz təzahürüdür.

1969-1982-ci illərdə respublikada güclü iqtisadi təməlin qoyulması sayəsində bugünkü müstəqil Azərbaycan qısa müddət ərzində yüksək iqtisadi göstəricilərə nail ola bildi. Bu fakt Ulu Öndərimizin görkəmli siyasi xadim olmaqla bərabər, həm xalq təsərrüfatına, həm də, ölkənin kadr potensialına dərindən bələd olduğunu bir daha təsdiqləyir. Həmin illərdə Heydər Əliyevin yürütdüyü məqsədyönlü siyasi xəttə əsaslanaraq respublika həyatının bütün sahələrinin, elmin, mədəniyyətin inkişaf etməsinə müvəffəq olmaq təmin edildi.

Həmin illərdə həyata keçirilən islahatlar Azərbaycanı aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevirdi. Genişmiqyaslı quruculuq işləri nəticəsində qısa müddət ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi və ölkənin sabahı üçün peşəkar kadr bazasının formalaşması üçün Heydər Əliyevin gərgin səyi nəticəsində on minlərlə azərbaycanlılın keçmiş ittifaqın ən nüfuzlu ali məktəllərində təhsil almaları üçün şərait yaradıldı. Respublikadan kənarda oxumağa gÖndərilən gənclərin sayı 50-dən 2000 nəfərə çatdırıldı. Onun 14 illik fəaliyyəti ərzində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf və tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələi inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikaları sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı.

### Bazar iqtisadiyyatına keçid, maliyyə sabitliyi, iqtisadi islahatlar...

Ölkənin milli təhlükəsizliyin təmin olunmasında maliyyə sabitliyi amili, çevik tənzimlənən təmkinli valyuta-pul siyasəti xüsusi rol oynayır. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi, makroiqtisadi tarazlığın qorunması və pul-valyuta siyasətinin tənzimlənməsi məhz 1993-cü ildən sonrakı dövrə təsadüf edir və bu mükəmməl iqtisadi strategiyanın əsas baza prinsipləri Ulu Öndər Heydər Əliyevin dərin iqtisadi doktrinasına əsaslanır. Onun iqtisadi təfəkkürrünün, güclü liberal bazar iqtisadiyyatı prinsiplərinə bələd olmasının nəticəsində respublikamızda maliyyə sabitliyinin formalaşması və möhkəmlənməsi üçün fundamental-konseptual struktur, çevik liberal iqtisadi sistem yarandı. Həmin illərdə xarici investorların ölkəyə axınını sürətləndirmək, onlara iş fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sərbəstləşdirmək, sahibkarlığı inkişaf etdirmək üçün bir sıra qanunlar qəbul edildi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə uyğunlaşdırılmasını təmin edən qanunvericilik bazası yaradıldı. Həmin dövrdə qəbul olunan "Sahibkarlıq haqqında" Qanun da sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirməklə yanaşı, iqtisadiyyatın bazar iqtisadiyyatı yolu ilə inkişafı üçün əlverişli hüquqi zəmin demək idi.

Maliyyə sabitliyinin ən böyük uğurlarından biri inflyasiyanın tamamilə nəzarətə götürülməsi ilə bağlı oldu. Bu islahatların davamı olaraq inflyasiya 1997-1998-ci illərdə birrəqəmli oldu və bu, özünü sosial sahədə göstərdi. Əhalinin pul gəlirlərinin artması nəticəsində vətəndaşlar vəsaitlərinin bir hissəsini banklara əmanət kimi yerləşdirməyə başladılar. Beləliklə, 1995-ci ildən sabitləşməyə başlayan iqtisadiyyat inkişaf üçün baza rolunu oynadı və növbəti illərdə bu tendensiya özünü daha qabarıq şəkildə göstərməyə başladı. Bu, Azərbaycanın iqtisadi inkişafında yeni mərhələnin təməlini qoymaqla bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq etmiş oldu.

Güclü maliyyə sabitliyi, inflyasiyanın nəzarətdə saxlanılması, valyuta bazarında inkişaf meyilləri və digər pozitiv faktorlar, ümumilikdə ölkənin əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsulun (ÜDM) illik artım tempini yüksəltdi. 1998-1999-cu illərdə milli məhsulun artım dinamikasına görə, Azərbaycan keçmiş postsovet ölkələrinin əksəriyyətini üstələyirdi. Azərbaycan MDB ölkələri içərisində ümumi daxili məhsulun artımına görə birinci, sənaye məhsulunun artım dinamikasına görə isə dördüncü yerdə dayanırdı. Ümumilikdə, 1995-2000-ci illərdə ölkədə ÜDM-in həcmi 2,3 dəfə artdı.

### Uğurlu büdcə siyasəti, dövlətin gəlirlərinin artımı...

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi mükəmməl büdcə-fiskal siyasəti 1995-ci ildən başlayaraq respublikamızda maliyyə sabitliyinin saxlanılmasını, inflyasiyanın aşağı salınmasını təmin etməklə, genişlənməkdə olan islahatların sürətlənməsinə təkan verdi. Bu zaman islahatların ilkin nəticəsi kimi əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin təmin olunması da əsas diqqət mərkəzində oldu. Düşünülmüş təmkinli və praqmatik büdcə siyasətinin yürüdülməsi iqtisadi artım dinamikası fonunda sosial və iqtisadi bölmələrində nəzərdə tutulan bütün tədbirlərin yerinə yetirilməsi üçün əsl fürsət yaratdı. Büdcədəki artım templəri əhalinin bütün kateqoriyaları üçün əlverişli sosial dayaq rolunu oynadı. Bir neçə il ərzində bütün sosial bölmələrdə bu tendensiya müşahidə olundu. Azərbaycan büdcə tərtibatı zamanı 1997-ci ildən etibarən xarici borc probleminə son qoydu. Halbuki MDB ölkələrinin əksəriyyətində bu tendensiya hələ də qalmaqdadır.

Ulu Öndər Heydər Əliyevin fenomenal, nadir və təkrarolunmaz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı. Hazırda Azərbaycan iqtisadiyyatının strukturundakı keyfiyyət dəyişikliyini, sosial islahatların modernizasiyasını təmin edən konsepsiya isə məhz Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu iqtisadi modelin məntiqi nəticəsidir.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı və neft strategiyasının həyata keçirilməsinə başlanıldı. Bu müqavilə Azərbaycanın potensial imkanlarını bütün dünyaya göstərməklə yanaşı, xarici investorların ölkəmizə marağının iqtisadi əsaslarını yaratmış oldu. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1999-cu ildə Bakı-Supsa və 2006-ci ildə isə Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərləri istismara verildi və bununla da neftin ixrac marşrutlarının diversifikasiyası yaradıldı.

Azərbaycanın xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olundu.



**Aydın Hüseynov,**
**YAP Qaradağ rayon təşkilatının sədri,**
**YAP Siyasi Şurasının üzvü**

### Azərbaycanın iqtisadi gücü hərbi gücünü də artırır...

Hər bir ölkənin suverenliyinin, müstəqil dövlət kimi dünyü birliyində özünütəsdiqinin başlıca ümummilli təməl bazasını onun hərbi gücü, milli ordusunun qüdrəti təşkil edir. Dövlətin siyasi sabitlik faktorunda mühüm rol oynayan ordu güclü stabilkik trendlərini möhkəmləndirməklə yanaşı, regionda aparıcı güc mərkəzlərindən birinə çevrilməsində də altqat rolunda çıxış edir. Ordunun və dövlətin inkişafı ümummilli siyasi xətt olmaqla hərbi strategiyanın əsas komponentlərini müəyyən edir. İqtisadi-siyasi, ictimai-sosial inkişafa zəminverici təsir edən güclü və sabit ordu təsərrüfatı milli təhlükəsizlik arxitekturasının vacib tərkib hissəsidir.

MDB qoşun hissələrində xidmət edən azərbaycanlı zabitlərin Vətənə qayıtması Silahlı Qüvvələrin kadr bazasının zənginləşməsinə səbəb oldu. Ümummilli Liderin bununla bağlı fikirləri bir daha uzaqgörənliyin təntənəsini ehtiva etmiş olur: "25 il bundan öncə mən Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm".

Ordu quruculuğunda kadr məsələlərini daha da gücləndirmək ücün yeni milli hərbi ixtisaslaşmış tədris strukturlarının, məktəblərin yaradılması da bu strategiyanın tərkib hissəsinə çevrildi. Respublikamızda Milli Hərbi Aviasiya Məktəbi yaradıldı və 1997-ci ilin payızında məktəbin ilk zabit kadrların buraxılışı məqsədyönlü siyasətin uğurlarını şərtləndirir. Milli Hərbi Aviasiya Məktəbinin ilk zabit buraxılışı mərasimində Ulu Öndərin iştirak etməsi isə Onun orduya verdiyi yüksək dəyərin, qayğının təntənəsi sayıla bilər. Eyni zamanda, hərbi sahədə orduya olan inamın, etibarın artmasına güclü təkanın, vətənpərvərlik ruhunun yüksəlməsinə birbaşa təsir göstərdi. Hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə Hərbi Akademiyanın yaradılması, Azərbaycan Silahlı Qüvvələrinin zabitlərinin Türkiyə, Ukrayna, Rusiya, Pakistan, Çin, Almaniya, Böyük Britaniya, İtaliya, Rumıniya, Macarıstan və digər ölkələrin tanınmış hərbi akademiyalarında və kurslarında təhsil alması ordumuzun kadr bazasının möhtəşəmliyini göstərir.

Bu gün güclü hərbi hazırlığa, döyüş əzmkarlığına, hərbi qüdrətinə və yüksək texniki imkanlara malik olan Azərbaycan Ordusu qarşısına qoyulan bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirmək iqtidarındadır. Azərbaycan Silahlı Qüvvələri bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşıb. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi hərbi doktrinanın ana trendləri üzrə inkişaf edən, Alı Baş Komandan, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində gündən-günə daha da möhkəmlənən və döyüş qabiliyyətini artıran Azərbaycan Ordusu düşmən üzərində qalibiyyət salnaməsi yazmağa qadirdir.

### Prezident İlham Əliyev və milli inkişafın yeni mərhələsi...

Azərbaycanın 2003-cü ildən sonrakı inkişaf xətti liberal bazar iqtisadiyyatının daha da dərinləşməsi, Avropa İttifaqı və digər dünya ölkələri ilə inteqrasiyası istiqamətində quruldu. Yeni dövlət başçısı postuna seçilən Prezident İlham Əliyev tərəfindən iqtisadi islahatlar davam etdirildi, yeni proqram və layihələr hazırlanaraq həyata keçirildi. Prezident İlham Əliyev Azərbaycanın müstəqil siyasi kursunu, iqtisadi doktrinasını yeni dövrdə ən mükəmməl şəkildə inkişaf etdirə biləcək ictimai xadim, siyasi Lider kimi yeni inkişaf erasının tələblərinə uyğun olaraq respublikamızın tərəqqisi və zənginləşməsi üçün islahatlar kursunun yeni konturlarını müəyyən edib.

Prezident İlham Əliyev regionda genişmiqyaslı enerji-kommunikasiya dəhlizlərinin davamını gətirən addımlar atdı. Bakı-Tbilisi-Ceyhan kəmərinin istifadəyə verilməsinin ardından regionda daha yeni bir nəhəng trans-kommunikasiya marşrutunun yaradılması üçün qətiyyətli addım atdı. Bu, Azərbaycanı dünyaya bağlayacaq strateji nəqliyyat dəhlizi olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti idi. Bakı-Tbilisi-Qars dəmir yolu xətti də məhz ötən əsrin ortalarında həyata keçirilən uğurlu neft strategiyasının məntiqi davamıdır.

2011-ci ildə Azərbaycan və Türkiyə Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsinə dair anlaşma memorandumunun, 2013-cü ilin iyun ayında isə Trans-Adriatik qaz kəməri (TAP) layihələrinə dair dövlətlərarası sazişlərin imzalanması, eləcə də, 2013-cü il sentyabrın 18-də "Şahdəniz-2" layihəsinə sanksiya verilməsi dünyanın enerji tablosunda Azərbaycanın mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

# I AVROPA OYUNLARI-2015

## "Avropa Oyunları strateji baxımdan da Azərbaycan üçün gəlir vəd edir"



***Avropa Oyunlarını iqtisadi baxımdan qiymətləndirdikdə yalnız oyunlar keçirilən zaman əldə edilən gəlirləri müəyyənləşdirmək doğru deyil. Avropa Oyunları strateji layihə olduğu üçün onun gəlirləri yalnız qısa deyil, eyni zamanda uzunmüddətli dövrü əhatə edəcək. Bu haqda iqtisadçı-alim Vüqar Bayramov bildirib. O, qeyd edib ki, Avropa Oyunları keçirildiyi müddətdə cari gəlirlərin əldə edilməsinə imkan verməklə yanaşı, eyni zamanda, strateji baxımdan oyunlar başa çatdıqdan sonra ölkə iqtisadiyyatına əlavə vəsaitin daxil olmasına imkan yaradacaq.***

Şübhəsiz, oyunlar keçirilən müddətdə kiçik və orta sahibkarlar daxil olmaqla ölkə iqtisadiyyatı bu tədbirlərdən faydalana biləcək. Bu oyunlar iqtisadiyyatın müxtəlif sektorları üçün yeni maliyyə imkanları yaradacaq. Bu isə ölkə sahibkarlarının qısa və uzunmüddətli dövrdə oyunların keçirilməsindən faydalanmaslna şərait yaradacaq.

Vüqar Bayramov Avropa Oyunlarının iqtisadi əhəmiyyətini hesablayan zaman həm cari və həm də starteqji gəlirləri bir-birindən fərqləndirməyi əhəmiyyətli sayır: "Gəlirlər sadəcə qısamüddətli dövrü əhatə etməyəcək, ölkəmiz yaradılmış infrastrukturdan uzun müddət mənfəət əldə etmək üçün istifadə edə biləcək. Əvvəlla, bu oyunların keçirilməsindən həm cari, həm də srtateji baxımdan turizm sektoru və bu sahədə fəaliyyət göstərən sahibkarlar faydalana biləcəklər. Avropa Oyunları keçirilən zaman ölkəyə xeyli sayda turistin gəlməsi nəzərdə tutulur. Beynəlxalq standartlara görə, Azərbaycanda olan hər bir turistin həftəlik orta xərci 1000 dollardır. Avropa Oyunlarının iki həftə davam etdiyini nəzərə alsaq, bu, o deməkdir ki, oyunlar keçirilən zaman hər bir turist ölkə iqtisadiyyatına 2000 dollar sərmayə yönəldəcək. İkincisi, turistlərin Azərbaycanda olmasından xüsusilə də xidmət, nəqliyyat, bank sektoru belə gəlir əldə etmək imkanı qazanacaq. Digər tərəfdən, cari gəlirlərə biletlərin satılması, yayım və reklam vasitəsilə əldə olunan gəlirlər də daxildir. Nəzərə alsaq ki, oyunlar müxtəlif xarici kanallar vasitəsilə yayımlanacaq, praktiki olaraq, bu da həmin oyunların yayımlanmasından gəlir əldə etməyə şərait yaradacaq. Yerli və xarici şirkətlər Avropa Oyunları zamanı özləri reklam kampaniyalarının aparılmasında maraqlı olacaq. Bu, artıq müşahidə olunmaqdadır və rəsmi tərəfdaşlar da var. Bu isə şirkətlərin reklam gəlirlərinin bir qisminin məhz bu oyunlara cəlb edilməsinə imkan yaradacaq. Eyni zamanda, ölkəyə gələn turistlərin xarici valyutanı milli valyutaya çevirməsi manata tələbin artmasına və xarici valyuta təklifinin çoxalmasına səbəb olacaq. Bu, MB-nin intervensiya xərcinin azaldılması baxımından əhəmiyyətlidir. Avropa Oyunları strateji baxımdan da Azərbaycan üçün gəlir vəd edir.".

Ölkəmizin strateji gəlirlərinə toxunan Vüqar Bayramov bildirib ki,inşa edilən infrastruktular sonrakı dövrdə qlobal və beynəlxalq yarışların keçirilməsi üçün istifadə ediləcək. Azərbaycan Avropa Çempionatının yarımfinalını və digər beynəlxalq oyunları keçirməklə bağlı artıq razılıq əldə edib. Bu, o deməkdir ki, xərcləri gəlirlərlə müqayisə etməməliyik. Çünki növbəti mərhələdə ciddi xərclər olmadan digər beynəlxalq oyunları təşkil etmək mümkün olacaq. Praktik olaraq, ölkəmiz növbəti beynəlxalq yarışların təşkil edilməsi üçün bütün bazanı formalaşdırıb. Deməli, növbəti illərdə çox cüzi xərclər ilə beynəlxalq yarışlar təşkil etmək və gəlir əldə etmək mümkün olacaq. Bu isə Avropa Oyunlarının əsas starteji iqtisadi üstünlüyüdür. Bu oyunların təşkilinə xərclənən vəsait uzunmüddətli dövrdə yaradılan infrastrukturdan istifadə və gəlir əldə etməyə şərait yaradacaq.Bu da imkan verəcək ki, Azərbaycan növbəti dövrlərdəki oyunlar ərəfəsində xərcləri cari və strateji gəlirlər hesabına kompensasiya edə bilsin.

İqtisadçı alim deyib ki, Avropa Oyunları Azərbaycanın tanıdılması hesabına ölkəyə xarici investisiyanın cəlb edilməsinə də təsir göstərəcək. Ölkəmizdə iqtisadiyyatın diversifikasiyası vacib hədəflərdən biridir. İqtisadiyyatın şaxələnməsi, eyni zamanda qeyri-neft sektoruna xarici sərmayələrin cəlb edilməsini nəzərdə tutur. Belə beynəlxalq yarışlar, ölkəmizin infrastrukturu, iqtisadi potensialını tanıtmaq üçün olduqca vacibdir. Deməli, sözügedən layihə Azərbaycan üçün qısa və uzunmüddətli dövrdə sərmayələrin cəlb edilməsi baxımından əhəmiyyətlidir. Mövcud infrastrukturun yaxşılaşması Azərbaycanın rəqabət qabiliyyətliliyinin daha da güclənməsinə və bu aspektdən xarici investisiyaların cəlbinə şərait yaradacaq.

Vüqar Bayramov deyib ki, ilk Avropa Oyunlarını təşkil etməklə ölkəmizi daha yaxından tanıda biləcəyik. Turizm sektorunun spesifik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, ölkəyə gələn hər bir turist digər potensial turistin gəlməsinə əsas yaradır. Bütün bunlar isə ölkəyə turist axınının güclənməsini və turizm sektorunun iqtisadi baxımdan strateji inkişafını stimullaşdıracaq. Turizm sektorunun priortitet olduğunu nəzərə aldıqda sözügedən sahə belə mötəbər yarışların keçirilməsindən ciddi şəkildə taktiki və starteji gəlirlər əldə edə biləcək.

İqtisadçı-alim bildirib ki, cari və strateji gəlirləri nəzərə alsaq, Avropa Oyunları iqtisadi baxımdan rentabelli bir layihədir. Sözügedən oyunların keçirilməsi Azərbaycan üçün sadəcə geosiyası və beynəlxalq mötəbər yarışa ev sahibliyi etmək baxımından deyil, eyni zamanda ölkə iqtisadiyyatının dəstəklənməsi baxımından vacibdir. Deməli, oyunların təşkilindən udan tərəf Azərbaycan və ölkə iqtisadiyyatıdır.




## İlk Şanslı qalibin adı açıqlandı

Bakı 2015 və rəsmi tərəfdaşı Azərbaycan Hava Yolları xanım Ofeliya Abdullayevanın Avropa Oyunlarının ilk Şanslı qalibi olduğunu açıqlayıblar. Abropa Oyunları Əməliyyat Komitəsindən SİA-ya verilən xəbərə görə, bilet nömrəsi püşkatma ilə seçilmiş Xanım Abdullayeva AZAL tərəfindən NyuYork şəhərinə iki nəfərlik biznes klas, gediş-gəliş uçuş bileti və 1500 AZN məbləğində cib xərcliyi qazanıb. "Bakı 2015"in Şanslı qalib kampaniyası onlayn bilet alan yerli tamaşaçılar üçün rəsmi tərəfdaşların təqdim etdiyi xüsusi hədiyyələr üçün keçirilir. Növbəti qaliblər P&G-dan illik məhsul tədarükü, Nar Mobile-dan ömürlük danışıq paketi və Tissotun xüsusi hazırladığı, kişi və qadın saatlarını əldə edəcəklər. Bütün mükafatlara Bakı 2015 Avropa Oyunlarının açılış və bağlanış mərasimlərinə iki yerlik bilet də daxildir. Şanslı qalib, Xanım Abdullayeva sevincini bölüşərək dedi: "Şanslı qalib hədiyyəsini qazanmaq həyata keçmiş arzu deməkdir. Nyu Yorka səyahət etmək imkanı insana həyatda bir dəfə verilən şans kimidir. Lakin bundan öncə, Birinci Avropa Oyunları və mərasimləri bizi gözləyir. Mən, AZAL və Bakı 2015-ə təşəkkürümü bildirirəm".

Azərbaycan Hava Yolları QSC-nın prezidenti Cahangir Əsgərov bildirdi: "Azərbaycan Hava Yolları Birinci Avropa Oyunlarının rəsmi tərəfdaşı olmaq və açılış mərasimindən də əvvəl öz rolunu oynamaq istəyir. Biz, qalibin NyuYork şəhərinə səyahətdən və Bakı 2015 mərasimlərində iştirakdan məmnun qalaraq, Azərbaycan üçün bu tarixi anın əhəmiyyətini daha da artıracağına əminik. Bakı 2015-in əməliyyatlar üzrə baş direktoru Saymon Kleq Şanslı qalib kampaniyasının ilk nəticəsi barədə bunları deyib: "Mən, Xanım Abdullayevanı 2015-in ilk Şanslı qalibi olması münasibətilə təbrik etmək istəyirəm. Bu təbliğat, Bakı 2015 möcüzəsini Oyunlar başlamazdan əvvəl tamaşaçılara çatdırır və biz, Azərbaycan Hava Yollarına bu ilk tədbirə ictimaiyyətin cəlb olunması üçün göstərdiyi davamlı dəstəyə görə minnətdarlığımızı bildiririk".

## Birinci Avropa Oyunlarının məşəli uzunömürlülər diyarı Lerikdə şöləndi




Birinci Avropa Oyunlarının məşəli Lənkərandan sonra mayın 1-də Lerikə gətirilib. Lerik şəhərinin giriş qapısında birinci Avropa Oyunlarının məşəlinin qarşılanma mərasimi olub. Avropa Oyunlarının rəmzi qapısında lerikli idmançı Rafiq Əliyev məşəli qəbul etdi. Sonra 10 məşəlçi yürüşə başladı. İdmançılar məşəli növbə ilə bir-birinə ötürərək rayon sakinlərinin alqış sədalarının müşayiəti ilə Nəriman Nərimanov küçəsi boyunca hərəkət etməklə mərkəzi meydana - Heydər Əliyev Meydanına çatdırdılar.

Azərbaycan Respublikasının Fəxri bədən tərbiyəsi və idman işçisi İlham Zülfiyev məşəli Heydər Əliyev Meydanında qurulmuş səhnəyə qaldırdı. Birinci Avropa Oyunlarının çırağı yandırılaraq yarışlar başa çatana qədər saxlanılmaq üçün rayona təhvil verildi. İ.Zülfiyev səhnədə məşəli alovlandırdı. Mərasimdə aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin və eləcə də 150-dən artıq qonağın iştirakı ilə Atəşgah məbədində birinci Avropa Oyunları məşəlinin alovlandırılması mərasiminin əks olunduğu videoçarx nümayiş etdirildi. Yürüş iştirakçıları, həmçinin Lerik şəhərindəki Uzunömürlülər Muzeyində nümayiş etdirilən eksponatlarla və Bilnə kəndində arıçılıq təsərrüfatı ilə də tanış olublar. Birinci Avropa Oyunlarının məşəli Lerikdən sonra Astaraya yola salındı.

# NED təşkilatı Con Kerrinin yaratdığı anti-Azərbaycan mərkəzinin tərkib hissəsidir

## Ədalətsizlik, yalan və qərəz isə heç vaxt həqiqət və reallıq üzərində qələbə çala bilməyib

***Artıq çoxsaylı faktlara və danılmaz dəlillərə əsaslanan bir həqiqətdir ki, ölkəmizdə yürüdülən müstəqil, qətiyyətli, eləcə də inkişaf və tərəqqi amilinə söykənən dayanıqlı siyasətin qarşısını almaqdan ötrü bir sıra Qərb siyasi dairələri tərəfindən təlimatlandırılan xarici QHT-lər, “insan hüquqları təşkilatları”, xarici media qurumları, “demokratiya institutları” ardıcıl şəkildə anti-Azərbaycan xarakterli addımlar atmaqda israrlı görünürlər. Buna səbəb isə I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi qərarı və Azərbaycanın get-gedə daha böyük beynəlxalq tədbirlərdə mərkəzə çevrilməsi faktorudur. Əslində, biz bunu daha öncədən də bilirdik. Çünki elə də uzağa getməyərək, hazırda yaşanan təəssüfedici bənzər halın, yəni ölkəmizlə təzyiq dili və qərəzlə danışmağın qarşı tərəfə hansı uğursuz nəticələr verdiyini yaxşı xatırlayırıq. “Eurovision” mahnı yarışması öncəsi Azərbaycana qarşı “qara piar” aparan təşkilat və media qurumları sonda məğlub, eləcə də rüsvayçı şəkildə geri çəkilməyə məcbur qaldılar. Əgər onların istəkləri baş tutsaydı, ən azından I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi barədə Avropa Olimpiya Komitəsi tərəfindən qərar verilməzdi. Yəni bu, bir faktdır.***

### ABŞ Dövlət Departamentinin suala qaneedici cavab verməməsi də təsdiq edir ki...



Bu arada ölkə mətbuatında ABŞ Dövlət Departamentinin rəhbəri Con Kerrinin ifşası barədə ortaya çıxan sənədlərdə danılmaz faktların ortaya çıxması və bütün bunların müqabilində ABŞ Dövlət Departamentinin suala qaneedici cavab verməməsi də təsdiq edir ki, bütün bunlar ilk növbədə Azərbaycana qarşı hazırlanmış rüsvayçı təxribatın tərkib hissəsidir. Məsələn, ABŞ Dövlət Departamenti sözçüsü Mari Harfın ənənəvi mətbuat toplantısında jurnalist ondan ABŞ-ın Azərbaycanda keçiriləcək Avropa Oyunları qabağı ölkənin imicini qaralamaq üçün plan hazırladığına dair yazıya münasibət bildirməsini istəyib. Jurnalist deyib: “Məqalədə dövlət katibi Con Kerri ermənipərəst kimi göstərilir. Əvvəlcə, bilmək istəyirəm ki, Dövlət Departamentinin buna reaksiyası necə olacaq? İkincisi, hökumətə rəsmi etiraz göndərməklə bağlı hər hansı plan varmı?”

Departament sözçüsünün həmin suala cavabı isə belə olub: “ABŞ-ın Azərbaycanın su-




verenliyi və müstəqilliyinə olan uzunmüddətli dəstəyinə sözdən daha çox etibar edilir. Bu məqalədəki iddialar isə tamamilə əsassızdır və həqiqətə uyğun deyil”.

Göründüyü kimi, jurnalist tərəfindən Departament rəsmisinə ünvanlanan məntiqi suala qeyri-məntiqi “diplomatik cavabın verilməsi” bununla da guya “siyasi balansı pozmadan”, “kontekstdən çıxılmaması” görüntüsünün yaradılması, əslində, Kerri barədə ortaya çıxan faktların dolayı yollarla təsdiqi anlamını daşıyır. Maraqlıdır, əgər ABŞ siyasi dairələri Azərbaycanı müstəqil və suveren ölkə kimi tanıyırlarsa, bu zaman ortada olan sənədlər haradan qaynaqlanır? Bax, məsələ də ondadır ki, Departament sözçüsü heç bir halda səmimi təsir bağışlayan cavabı verə bilməyib. Çünki onun həmin sual qarşısında veriləcək cavabı da yox idi.

### NED təşkilatının da Con Kerrinin Konqresdəki ofisindən idarə olunan anti-Azərbaycan kampaniyası fonunda fəaliyyət göstərməsi şübhəsizdir

Bu arada ABŞ-ın daha bir təşkilatı - Demokratiyaya Milli Dəstək Fondunun (National Endowment for Democracy - NED) təşkilatçılığı ilə “Azərbaycan: Demokratik həmrəylik üçün sınaq” adlı tədbirin keçirilməsi planı da məlum olub. Bu baxımdan, ilk növbədə belə bir nəticəyə gəlməyə kifayət qədər zəmin yaranır ki, Azərbaycan əleyhinə çıxış edən bir çox Qərb təşkilatlarının təlimatları bir mərkəzdən ibarət olunur. Yəni NED təşkilatının da Con Kerrinin Konqresdəki ofisindən idarə olunan anti-Azərbaycan kampaniyası fonunda fəaliyyət göstərməsi şübhəsizdir.

Söz yox ki, həmin tədbir çərçivəsində bir daha Azərbaycanda “söz və mətbuat azadlığının pozulması”, “sərbəst toplaşma azadlığının məhdudlaşdırılması”, “yerli QHT-lərə xarici təşkilatlar tərəfindən qrantların ayrılmasını qadağan edən qanunun ləğv edilməsi” və s. bu kimi böhtanları əks etdirən çıxışlar olacaq. Həmin çıxışları isə erməni lobbisinin xərclədiyi pullar hesabına Kerrinin müəyyənləşdiriyi adamlar - Emin Milli, Kənan Əliyev, Tomas de Vaal və Miriam Lanskoy böyük canfəşanlıqla edəcəklər. Onu da qeyd edə bilərik ki, bu gün Emin Milli, Kənan Əliyev kimi bədxahların bu kimi anti-Azərbaycan xarakterli tədbirlərdə düşmən dəyirmanına su tökmələri onların Leyla Yunus, Xədicə İsmayıl kimi xəyanətkarların ardıcılları olmalarının bariz göstəricisidir. Belə olan məqamda, daim erməniçilik mövqeyi ilə daha çox seçilən Kerrinin, eləcə də NED və bənzər təşkilatların digər “sapı özümüzdən olan baltalar”ın “əməyindən” istifadə edəcəkləri istisna olunmaya bilər.

Yuxarıda da qeyd olunduğu kimi bənzər addımlar ABŞ-ın Azərbaycanda neçə illərdir həyata keçirdiyi və ikili standartları əks etdirən siyasətinin tərkib hissəsidir. ABŞ-ın Milli Demokratiya İnstitutu, Marşal Fondu, Beynəlxalq İnkişaf Agentliyi, Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu illərdir ki, elə bu prinsiplərlə işləyirlər.

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun da verdiyi açıqlamadan bəlli olur ki, davamlı şəkildə Azərbaycanın iqtisadi, sosial, siyasi, humanitar və digər sahələrdə əldə etdiyi uğurları gözdən salmağa çalışan bəzi yerli qruplar və xarici dairələr bu fürsəti də əldən vermək istəmirlər.

“I Avropa Oyunlarını ölkəmizə qarşı həyata keçirilən “qara piar” kampaniyasının baş mövzusuna çevirməyə çalışırlar”-deyə qeyd edən Əli Həsənov burada daha bir neçə maraqlı məqamlara toxunub. Məsələn, PA rəsmisi bununla bağlı deyib ki, “Azadlıq” radiosu başda olmaqla bəzi maraqlı qüvvələr sosial şəbəkələrdə guya Azərbaycanda Avropa Oyunları ilə əlaqədar heyvanlarla qəddar davranıldığını əks etdirən video yayır və paylaşırlar: “Halbuki həmin videoda hadisənin məhz Azərbaycanda baş verdiyini təsdiq edən heç bir dəlil yoxdur. Bu da bir daha sübut edir ki, bu kimi “faktları” ortaya atanlar Avropa Oyunları ərəfəsində Azərbaycanın imicini ləkələməyə və mühüm beynəlxalq idman tədbirinə qarşı açıq təxribat törətməyə çalışırlar. Biz belə təxribatlarla əvvəllər də, 2012-ci ildə “Eurovision” Mahnı Müsabiqəsi keçirilərkən də rastlaşmışıq. Həmin dövrdə beynəlxalq ictimaiyyət əmin oldu ki, bütün bunlar Azərbaycana təzyiq göstərmək, onun müstəqil siyasətinə öz iradəsini qəbul etdirmək istəyən qüvvələrin qurduğu məkrli oyundan başqa bir şey deyil. Əmin olduğumuzu bildiririk ki, Azərbaycanı gözdən salmaq üçün istifadə olunan bu tipli primitiv, ucuz metodlar heç bir nəticə verməyəcək və nə qədər ki gec deyil, həmin qüvvələri öz məkrli niyyətlərindən geri çəkilməyə dəvət edirik”.

Məhz nəticə olaraq, bir daha qənaətə gəlmək mümkündür ki, daha öncələr də, hətta ən ağlasığmaz “ittihamlarla” Azərbaycana qarşı çıxan qüvvələr sonda öz əməllərindən heç bir nəticə hasil olmadığını dərk edib, geriyə çəkilmək məcburiyyətində qalıblar. Necə ki, azərbaycanlıların el məsələndə olduğu kimi, yalan ayaq tutsa da, yerimir. Hazırda ABŞ və Qərbin də eyni yalan-böhtan kapmpaniyaları uzağı I Avropa Oyunları gününə qədər davam edə bilər. Çünki ortada olan həqiqət də budur ki, bu oyunlar öz möhtəşəmliyi və əsrarəngizliyi ilə qərəzli qüvvələrin şantajçı ağızlarını yummağa yanaşı, onlarla əlbir olan erməni lobbisinin siyasi kələyini kəsəcək. Eyni zamanda, “sapı özümüzdən olan baltalar”ın tiyələrinin nə qədər kor, səmərəsiz olmasını da sübuta yetirəcək. Belə ki, ədalətsizlik, yalan və qərəz heç vaxt həqiqət və reallıq üzərində qələbə çala bilməyib.

**Rövşən NURƏDDİNOĞLU**

## Amerikalı jurnalist: “ABŞ növbəti iğtişaşlara hazır olmalıdır”



Baltimorda qaradərili gənc Fredi Qreyin polis tərəfindən döyülüb öldürülməsinə görə, keçirilən küçə nümayişlərinin ardınca başqa iğtişaşlar da baş verəcək. Trend-in məlumatına görə, bunu “The Week” jurnalında dərc olunan məqaləsində amerikalı jurnalist Deymon Linker bildirib. Onun sözlərinə görə, bu il ərzində ABŞ sakinləri artıq bir neçə zorakılıq qığılcımı görüblər: “Baltimorda baş verənlərdə dəhşətli məqamlar çoxdur. Eyni dəhşətləri biz ötən yay Ferqyusonda və Staten-Aylenddə və bu ay Şimali Çarlstonda gördük. Qaradərili amerikalılar açıq-aşkar adi vətəndaşlar və polis tərəfindən zorakılığa məruz qalıblar”. Müəllifin sözlərinə görə, ABŞ-da sanki ayrı bir qrupun nə qədər dözümlü olduğunu yoxlamaq üçün xüsusi sadist eksperimenti aparılır, lakin hökumət münaqişənin səbəbləri üzərində işləmək istəmir. Linker vurğulayıb ki, irqi ayrı-seçkilik və zorakılıq hallarına son verilməsə, ABŞ iğtişaşlarla yaxın gələcəkdə yenə üzləşə bilər və bu iğtişaşlara hazır olmalıdır.

## “ABŞ-da demokratlar həmişə xarici siyasətə ciddi zərbələr vurub”




“Demokratiyaya Milli Dəstək Fondunun (National Endowment for Democracy - NED) “Azərbaycan: Demokratik həmrəylik üçün sınaq” adlı tədbirin keçirilməsinin planlaşdırılması mətbuatda gedən yazıların həqiqət olduğunu təsdiq edir”. Bunu SİA-ya Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini, siyasi şərhçi Elçin Mirzəbəyli deyib. E. Mirzəbəylinin sözlərinə görə, bu davranışlar geosiyasi əhəmiyyətə malik olan Azərbaycanla müttəfiqlərinə qarşı hər zaman naməlum mövqe sərgiləyən ABŞ arasında gərginliyin yaranmasına səbəb olacaq: “Hesab edirəm ki, bu da indiki şəraitdə Vaşinqtonun maraqlarına uyğun gəlmir. Ümumiyyətlə ABŞ-da demokratların hakimiyyəti dövründə bu ölkənin xarici siyasətinə həmişə ciddi zərbələr vurulub. Barak Obama da sələflərindən fərqli addım atmadı. Yəni, onun administrasiyası ABŞ-ın maraqlarına zidd olan siyasət yürüdərək bu ölkəyə qarşı formalaşan müsbət imici tamamilə məhv etdi. Söhbət təkcə Azərbaycanın ABŞ-a olan münasibətindən getmir. Bu gün dünyanın bütün ölkələrində, hətta ABŞ-ın müttəfiqi olan dövlətlərdə sorğular keçirilsə, ona qarşı normal münasibətin olmadığı üzə çıxar. Bu da yürüdülən siyasətin nəticəsidir”. E. Mirzəbəyli deyib ki, “5-ci kolon”un nümayəndələri adətən ayrı-ayrı dövlətlərin ərazisində ən ləyaqətsiz adamların içərisindən seçilir: “Bunlar o adamlar olur ki, onlar dövlətini, vətənini, hətta doğmalarını belə satmağa hazır olurlar. Belə adamlar isə özlərini xarici qüvvələrin istifadəsinə verirlər. Bu baxımdan 5-ci kolon sifarişini alıb. Amma Azərbaycanda “5-ci kolon”un ciddi dayaqlara malik olduğunu düşünmürəm. Bu insanların bir qismini Azərbaycanda, ümumiyyətlə, heç kim tanımır. Onlar yalnız qrant dəllalları, alverçilərdir. Bir qismi isə ifşa olunub. Bunların isə Azərbaycan cəmiyyətinə hər hansı bir formada təsir göstərəcəyini düşünmürəm”.

# Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlar Heydər Əliyev ideyalarının təntənəsidir



*“Aztelekom” İB-nin baş direktoru, YAP MNTK-nın sədri Məhəmməd Məmmədovun yap.org.az-a müsahibəsini ixtisarla təqdim edirik*

**- Məhəmməd müəllim, müasir tariximizə nəzər saldıqda məşhur bir aforizm bir daha öz təsdiqini tapır: Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, onun Heydər Əliyev kimi lideri var. Azərbaycanın inkişafının Heydər Əliyev dövrünü necə xarakterizə etmək olar?**

- Müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin bu fikrini xatırlamaqla Onun Azərbaycan dövləti, xalqı qarşısında xitdmətlərinin miqyasının nə qədər geniş olduğunun aydın ifadəsini yaratmış oluruq. Dahi şəxsiyyət bildirmişdir: “Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!”

Hər zaman təkrar da olsa, bu fikri qeyd etməyi özümüzə borc bilirik ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı bugünkü uğurların təməli oldu. Milli dövlətçilik salnaməsinə qızıl hərflərlə yazılan 15 iyun 1993-cü il xalqı məşəqqətlərdən qurtaran qayıdış günü oldu. O gündən etibarən müstəqilliyimizin əbədi olması üçün böyük xidmətlər göstərən ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu, yaradıcısı, süverenliyimizin etibarlı qarantı oldu. Ötən əsrin sonunda ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycan indi dünyada günəş kimi parlayır. Hər bir Azərbaycan vətəndaşı müstəqillik yolumuzun heç də hamar olmadığını dərk etməli, tarixi paralellər fonunda ölkəni, xalqı inkişafa, tərəqqiyə aparan liderin rolunu düzgün dəyərləndirməlidir.

Daim vurğulandığı kimi, böyük şəxsiyyətlərin ömrü onların yaşadığı illərlə ölçülmür. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin bir siyasətçi, dahi dövlət xadimi kimi ömrü, dövlətimiz, xalqımız qarşısındakı xidmətləri yaşadığı illərə sığmır. Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət, görülən işlər və onun uğurları Heydər Əliyev ideyalarının təntənəsidir. Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin müəyyənləşdirdiyi düşünülmüş və məqsədyönlü siyasət nəticəsində dövlət müstəqilliyini möhkəmləndirdi, bir dövlət olaraq varlığını təsdiqlədi. Heydər Əliyevin zəngin irsi Azərbaycan cəmiyyətinin milli-mənəvi zənginliyini, dəyərlər sistemini təşkil edən möhkəm bazadır. Dahi şəxsiyyət öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Bütün bunların hamısı bir daha bu fikri söyləməyə əsas verir ki, Azərbaycanın dünənki inkişafı ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdırsa, bugünkü, gələcək yüksəlişi də Onun ideyalarına əsaslanır. Bütün ömrünü doğma Vətəninin xoşbəxtliyinə həsr edən, Azərbaycana sonsuz məhəbbət bəsləyən Heydər Əliyevə xalqımızın sevgisi sonsuzdur və yalnız onu özünün ümummilli lideri kimi qəbul edir. Onun adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb.

Təbii ki, bir sual çərçivəsində dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı, dövləti qarşısındakı xidmətlərindən bəhs etmək qeyri-mümkündür. Bu gün adı dünyanın 10 xoşbəxt ölkəsi sırasında çəkilən, iqtisadi möcüzələr ölkəsi kimi tanınan, demokratiya təcrübəsi digər ölkələrə nümunə göstərilən Azərbaycan ümummilli lider Heydər Əliyevin şah əsəridir. Onun uğurlu və düşünülmüş siyasəti nəticəsində ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadə bugünkü uğurlara geniş yol açdı. Məhz bu uğurların nəticəsidir ki, Azərbaycanı yaxın 10 ildə inkişaf etmiş ölkələr sırasında görmək istəyimizi ortaya qoyuruq. İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması ölkəmizin qarşısında yeni-yeni imkanlar açır. 1994-cü ilin 20 sentyabarında imzalanan “Əsrin müqaviləsi”nin ötən il 20 illiyi ərəfəsində “Cənub” Qaz Dəhlizinin təməlinin qoyulması mərasiminin keçirilməsi də uğurlarımızın davamlılığından xəbər verir. Bu gün böyük fəxr və inam hissi ilə qeyd edirik ki, hazırda Azərbaycanın iştirakı olmadan, bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüzdür. Ölkəmiz etibarlı tərəfdaş kimi dünya birliyində yeri və rolunu möhkəmləndirir. Təbii ki, bu uğurlarımız qeyd etdiyimiz kimi, Heydər Əliyev siyasətinə, ideyalarına əsaslanır. Dahi şəxsiyyət bildirirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Məhz Azərbaycan güclü, qüdrətli iqtisadiyyatı ilə bu gün dünyanın diqqətindədir. İnkişafın Azərbaycan modelinin mövcudluğu ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. Azərbaycanı müstəqil, qüdrətli, zəngin ölkə kimi görmək istəyən dahi şəxsiyyət Heydər Əliyev bunun üçün möhkəm təməli, bazanı məhz hakimiyyətinin birinci dövründə yaratmışdır. Ümummilli lider həmin dövrün uğurlarını belə şərh etmişdir: “O dövrdə yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır.”

Məhz ulu öndərin bu fikirləri fonunda bu reallığı böyük inam və qətiyyətlə bildiririk ki, 1993-cü ildən inkişaf, tərəqqi yoluna çıxan Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirməklə böyük gələcəyə doğru inamla addımlayır.

**- Məhəmməd müəllim, Ümumdünya İqtisadi Forumunun hesabatına görə Azərbaycanın 148 ölkə arasında 38-ci yeri tutması təbii ki, ölkə iqtisadiyyatının inkişafının göstəricisidir...**

- Hər bir sahənin inkişafında iqtisadi tərəqqinin əsas rol oynadığını nəzərə alsaq, ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlara və onların nəticəsində əldə edilən uğurlara diqqət yetirməyə böyük zərurət duyulur. “Azərbaycanın hərtərəfli inkişafına nail olmaq üçün islahatlar regionlar üzrə, proqramlar əsasında həyata keçirilməlidir. Gələcək planlarımızı həyata keçirmək üçün Azərbaycanda ilk növbədə maliyyə intizamı olmalıdır” söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev eyni zamanda bildirmişdir ki, ən ucqar kəndlərin sakinləri də iqtisadi inkişafı öz həyat tərzində hiss etməlidir. 2004-2008-ci illər üçün nəzərdə tutulan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının uğurlu icrası, beş il üçün nəzərdə tutulan vəzifələrin lazımi səviyyədə yerinə yetirilməsi növbəti proqramın-2009-2013-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının qəbulunu şərtləndirdi. Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının uğurlu icrası da ölkənin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Bir proqramın uğurlu icrası növbəti proqramın qəbuluna əsas yaradır. Artıq regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının üçüncü mərhələsi icra edilir. Bu gün nəinki paytaxt, hətta bölgələrimiz sosial-iqtisadi inkişafı ilə dünyanın diqqətindədir. Regionlar arasında sağlam rəqabətin getdiyi inkaredilməzdir. Azərbaycan quruculuq meydançasına çevrilib. Dövlət başçısı İlham Əliyevin regional inkişaf proqramlarının icrası ilə yaxından tanış olmaq üçün mütəmadi bölgələrdə səfərdə olması, yeni obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirak etməsi, insanların problemləri ilə yaxından tanış olması qarşıya qoyulan məqsədlərin yüksək səviyyədə həyata keçirilməsinə stimul olmaqla, ictimaiyyətdə böyük ruh yüksəkliyi yaradır. Möhtərəm Prezidentimiz İlham Əliyevin ayrı-ayrı rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair sərəncamları əsasında dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması da bölgələrin inkişafına diqqət və qayğının təzahürüdür.

Son 11 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən, dövlət büdcəsi 20 dəfən çox artmış, 50 milyard dollar həcmində valyuta ehtiyatı toplanmışdır. Müqayisə üçün daim bu rəqəm diqqətə çatdırılır ki, 2003-cü ildə dövlət büdcəsi 1,3 milyard dollar, valyuta ehtiyatları 1,6 milyard dollar olmuşdur. Cari ilin dövlət büdcəsinin 25 milyard dollardan artıq olması uğurlu sosial-iqtisadi islahatların nəticəsidir.

Azərbaycan investisiya cəlbediciliyini də yüksək səviyyədə qoruyur. Ümumilikdə, son 11 ildə ölkə iqtisadiyyatına yatırılan vəsaitlərin həcmi 180 milyard dollardan artıqdır.

Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında səsləndirilən rəqəmlər də inkişafın hansı səviyyədə olduğunu açıqlayır. Ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektoru 7 faiz artıb. Kənd təsərrüfatında artım 3 faiz təşkil edir. Sənaye istehsalı 4 faiz artıb. Əhalinin pul gəlirləri inflyasiyanı üstələyir. Belə ki, əhalinin pul gəlirləri 5,3 faizdir. Cari ilin ötən dövründə 30 minə yaxın yeni iş yeri açılıb ki, bunun da 25 mini daimidir. Hazırda işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. Dövlət başçısı İlham Əliyev bu inamı da ifadə etmişdir ki, cari ildə görüləcək işlər, yeni, infrastruktur layihələrinin, sosial proqramların icrası nəticəsində yoxsulluq səviyyəsi daha da enəcək və 11 il bundan əvvəl qarşıya qoyulan vəzifə təmin ediləcək- Azərbaycanda yoxsulluq tamamilə aradan götürülməlidir. Neft gəlirlərinin idarə olunmasında şəffaflığın yüksək səviyyədə təmin edilməsinin də uğurlarımızda rolu böyükdür.

Azərbaycanın uğurlu sosial-iqtisadi islahatları aparıcı beynəlxalq maliyyə qurumlarının hesabatlarında öz əksini tapır. Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görüb. Möhtərəm Prezidentimiz İlham Əliyev Nazirlər Kabinetinin iclasında bildirmişdir: “İldən-ilə bizim yerimiz yaxınlaşır. Biz daha bir pillə qalxmışıq və dünya miqyasında rəqabətqabiliyyətliliyə görə 38-ci yeri tutmaq hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir və bu yeri biz neftə, qaza görə yox, məhz düşünülmüş islahatlara görə qazanmışıq. Bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir, milli maraqlar və daxili resurslar üzərində qurulubdur.”

**- İqtisadiyyatın inkişafında yeni texnologiyaların tətbiqi əsasdır. BMT-nin qərarına əsasən yaşadığımız XXI əsrin əsas çağırışı olan İKT-nin inkişafına Azərbaycanda xüsusi diqqət göstərilir. Bununla bağlı fikirlərinizi bilmək istərdik....**

- Müasir dövrdə daha çox tələbat duyulan informasiya cəmiyyətinə keçidin təmin edilməsi, biliyə əsaslanan iqtisadiyyatın qurulması, dövlət və yerli özünüidarəetmə orqanlarında ən müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, elektron xidmətlərin inkişaf etdirilməsi, Elektron Təhlükəsizlik üzrə Milli Mərkəzin Fəaliyyətinin inkişaf etdirilməsi rəqabətqabiliyyətli və ixrac yönümlü İKT potensialının gücləndirilməsi qarşıda duran əsas prioritetlərdəndir. Ölkə iqtisadiyyatının neft amilindən asılılığını azaltmaq, insan kapitalını inkişaf etdirməklə daha çox uğura nail olmağın mümkünlüyü isə İKT-nin inkişafı ilə bilavasitə bağlıdır. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının əsas hədəflərindən biri də qarşıdakı on ildə İKT-nin illik artımını 18-20 faiz həddində saxlamaqla sektorun gəlirlərini 8-9 milyard dollara çatdırmaqdır. Bu sahədə müəyyən təcrübəyə malik Azərbaycan artıq özünü təsdiqləyir.

Kosmik sənaye Azərbaycanda yeni sahə olsa da bu istiqamətdə görülən işlər barədə danışmaq haqqı qazanıb. 2010-cu ildə “Azərkosmos”” ASC-nin təsis edilməsi, telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə işə start verildi, perspektivlər müəyyənləşdirildi. Azərbaycanda və Qafqazda ilk peyk operatoru olan “Azərkosmos”un yaradılması ilə ölkədə teleradio yayım və telekommunikasiya xidmətlərinin göstərilməsi, hökumət və korporativ müştərilərin tələblərinə cavab verən yüksək etibarlı rabitə platformalarının təmin edilməsi ilə bərabər ölkəmizin ilk süni peyki olan “Azerspace-1””in hazırlanmasına və orbitə buraxılması istiqamətində proseslər sürətləndi. Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edən “Azərspace-1”” peyki bütün Azərbaycan ərazisində keyfiyyətli televiziya və radio yayımı, o cümlədən sürətli internet xidmətlərinin göstərilməsini təmin edir.

BMT-nin elan etdiyi kimi İKT əsrində Azərbaycan öz yenilikləri ilə zamanın tələbinə cavab verir. İKT-nin, o cümlədən internet iqtisadiyyatının inkişaf etdirilməsi ənənəvi iqtisadi sahələrin inkişafında da mühüm rol oynayacaq. Məhz internet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır.

# Elçin Quliyev türkiyəli generalla görüşdü

Aprel ayının 30-da Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəsi - Sərhəd Qoşunlarının Komandanı general-polkovnik Elçin Quliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələri Quru Qoşunları Qərargahının rəisi korpus generalı İhsan Uyarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. SİA-nın DSX-nin saytına istinadən verdiyi məlumata görə, geniş tərkibdə keçirilən görüş zamanı Dövlət Sərhəd Xidmətinin rəsi - Sərhəd Qoşunlarının Komandanı general-polkovnik Elçin Quliyev qonaqları salamyaraq, cari ilin aprel ayının 24-də Türkiyə Respublikasında keçirilmiş möhtəşəm Çanaqqala qələbəsinin 100 illiyinə həsr olunmuş tədbirlərlə bağlı təbrik edərək xoş arzularını bildirib. General-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının dövlət sərhədlərindəki mövcud əməliyyat şərati, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizinin, eləcə də Azərbaycan-İran sərhədinin 132 kilometrinin işğal altında olması, bu ərazilərdən qaçaqmalçılıq və digər qeyri-qanuni məqsədlərlə istifadə edilməsi barədə qonaqlara məlumat verib. Qonaqlar Azərbaycan sərhəd mühafizəsi



sisteminin təşkili, Dövlət Sərhəd Xidmətinin təyinatı və tapşırıqları, həyata keçirilən islahatlar və əldə olunmuş nailiyyətlərlə tanış ediliblər. Müzakirələr zamanı ikitərəfli əlaqələrin səviyyəsi yüksək qiymətləndirilib və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sərhədlərin təhlükəsizliyinin möhkəmləndirilməsi, təcrübə mübadiləsinin aparılması, birgə tədbirlərin keçirilməsi istiqamətində əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi vurğulanıb. Görüşdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşesi briqada generalı Hasan Nevzat Taşdeler iştirak edib.

# Mübariz Qurbanlı: “Bunu heç bir cərəyan, heç bir qüvvə dəyişə bilməz”



Bizim multikultural və tolerant cəmiyyətimiz Avropada da təşviq edilə bilər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, bunu Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə səfərdə olan İtaliyanın Coğrafiya Cəmiyyətinin nümayəndələri ilə görüşündə deyib. Görüşdə İtaliya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafından bəhs edilib. M.Qurbanlı qonaqlara Azərbaycanda mövcud olan tolerantlıq ənənələri, multikultural mühit haqqında məlumat verib: “Dünyanın tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilməkdə olan Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Dünyəvilik və tolerantlıq Azərbaycan xalqının təfəkkür tərzidir. Azərbaycanda bütün konfessiyalar dinc şəraitdə fəaliyyət göstərir. Bunu heç bir cərəyan, heç bir qüvvə dəyişə bilməz”. O, həmçinin Azərbaycandakı dini tolerantlığın təşviqi məqsədilə dövlət tərəfindən görülən işlər barədə məlumat verib. İtaliyalı qonaqlara ölkəmizdəki dini durum, dini icmalar, eləcə də məscid və ziyarətgahlar, tarixi abidələrlə bağlı ətraflı məlumat verilib. Nümayəndə heyətinin rəhbəri, İtaliya Coğrafiya Cəmiyyətinin fəxri prezidenti, professor Franko Salvatori Azərbaycana səfərdən məmnun olduqlarını bildirib. Rəhbərlik etdiyi təşkilat haqqında məlumat verən F.Salvatori deyib ki, 1867-ci ildə yaranan Cəmiyyət ayrı-ayrı ölkələrə ekspedisiyalar təşkil edir. Qonaq Azərbaycanda tolerantlıq, multikulturalizm sahəsində görülən işlərin beynəlxalq miqyasda yüksək qiymətləndirildiyini vurğulayıb. Görüşdə, həmçinin qarşılıqlı əməkdaşlığın perspektivləri və gələcəkdə birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilib. Qonaqlara Azərbaycanda mövcud tarixi, mədəni abidələr haqqında kitablar təqdim edilib.

# “İdman dünyamdır” layihəsinə yekun vurulub



Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə keçirilən “İdman dünyamdır” layihəsinə yekun vurulub. SİA-nın məlumatına görə, bu münasibətlə keçirilən tədbirdə layihə çərçivəsində görüşlərdən işlərdən söhbət açılıb. Diqqətə çatdırılıb ki, idmanın kütləviləşməsi, uşaq və gənclərin bu sahəyə fəal surətdə cəlb olunması layihənin əsas prioritet istiqaməti olub. Bildirilib ki, layihə çərçivəsində Azərbaycanda, eləcə də ölkəmizdən kənarda idman sahəsində uğur qazanan gənclər haqqında verilişlər çəkilib, onların həmyaşıdları ilə görüşləri təşkil olunub. Tədbirdə qonaq qismində Səbail rayon Gənclər və İdman İdarəsinin rəis müavini Orxan Abbasov iştirak edib. Ölkəmizdə idman sahəsinə göstərilən diqqət və qayğıdan danışan qurum rəsmisi bildirib ki, məhz bunun nəticəsidir ki, ildən-ilə idmançılarımızın uğurları daha da artır. Azərbaycanda keçiriləcək “Bakı-2015” I Avropa Oyunlarından da danışan Orxan Abbasov diqqətə çatdırıb ki, möhtəşəm idman tədbiri ilə bağlı paytaxtımızda, həmçinin Səbail rayonu ərazisində yüksək səviyyədə hazırlıq işləri görülüb. Tədbirdə digər çıxış edənlər bu tip layihələrin böyük önəmindən söhbət açıblar. O da vurğulanıb ki, layihə çərçivəsində idmançı gənclərin həyatından, qazandıqları uğurlardan bəhs olunan verilişlərin hazırlanması gəncləri idmana yönəldir, onların bu sahəyə olan marağını daha da artırır.



# “SOCAR Azərbaycanda ilk sıxılmış qaz stansiyasını yaxın günlərdə istifadəyə verəcək”

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən inşa edilən Azərbaycanda ilk sıxılmış qaz stansiyası (CNG Gas Station) yaxın günlərdə istifadəyə veriləcək. Bu barədə jurnalistlərə açıqlamasında SOCAR-ın prezidenti Rövnəq Abdullayev məlumat verib. O bildirib ki, SOCAR Gürcüstanda CNG stansiyaları tikib istifadəyə verib və yaxşı nəticələr əldə edib. Artıq həmin stansiyaların Azərbaycanda da tikilməsi ilə bağlı proqram hazırlanıb və “SOCAR-Petroleum” Qapalı Səhmdar Cəmiyyəti bu işləri həyata keçirir. İlk stansiya “BakuBus” şirkətinin avtobus parkının yanında inşa edilib və həmin stansiya yaxın günlərdə istifadəyə veriləcək. Digər bir CNG stansiyası isə Zabrat qəsəbəsində inşa edilir. “Biz çalışacağıq ki, bir il yarıma Bakı və ətraf rayonlarda da bu tipli stansiyaların və “CNG” ilə işləyən avtomobillərə qulluq edən texniki xidmət bazaları tikək. Gələcəkdə isə həmin stansiyaların sayının artırılaraq ölkə üzrə hər 180 kilometrdən bir quraşdırılması nəzərdə tutulur. Düşünürük ki, gələcəkdə yanacaq bazarının 30-35 faizi məhz qazın payına düşəcək. Bu həm ekoloji cəhətindən, həm də qiymət baxımından daha sərfəlidir”, - deyə SOCAR-ın prezidenti bildirib.

# “Park Bulvar”da Qələbənin 70 illiyi ilə bağlı tədbir keçirildi

II Dünya müharibəsində qazanılan böyük Qələbənin 70 illiyinin qeyd olunması ilə əlaqədar Səbail rayon icra hakimiyyəti tərəfindən tərtib olunmuş qrafikə əsasən rayonda müxtəlif tədbirlər, veteranlarla görüşlər keçirilir, veteranlar həmin illərdə qazanılan qələbəyə aparan yollar, ağır döyüşlər barədə öz xatirələrini gənc nəslə çatdırırlar. Həmin tədbirlərdən biri paytaxt sakinləri və çoxsaylı qonaqların sevimli istirahət və əyləncə yerlərindən olan Dənizkənarı Milli Parkdakı “Park Bulvar” Ticarət və İstirahət Mərkəzinin təşəbbüsü ilə təşkil olunub.



Müharibə illərindəki qanlı döyüşlərdə qəhrəmanlığa, arxa cəbhədə fədakar əməyə görə aldıqları orden və medalları fəxrlə taxmış veteranları, görüşdə iştirak edən ictimaiyyət nümayəndələrini “Park Bulvar” Ticarət və İstirahət Mərkəzinin mətbuat katibi Günay Malikqızı salamlayaraq əlamətdar yubiley münasibəti ilə veteranları və tədbir iştirakçılarını təbrik etmiş, onlara ən xoş arzularını çatdırıb. Qeyd olunub ki, Böyük Vətən müharibəsinin iştirakçıları, həmin illərdə arxa cəbhədə çalışanlar arasında sağ qalanlar - o günlərin canlı şahidləri bu gün hər birimiz üçün əzizdir. Bu gün hər bir vətəndaş, xüsusi ilə Azərbaycan gənci öz tarixini bilməli, həmin dövrdə babalarının əldə etdikləri qələbənin qiymətini dərk etməlidir. Müharibədə qazanılan qələbədə Azərbaycanın böyük payı vardır. 700 minə yaxın Azərbaycanlı bu müharibədə iştirak etmiş, onların təxminən yarısı həlak olmuşdur.

Səbail rayon icra hakimiyyətinin sektor müdiri İsrafil Kərimov isə öz çıxışında bildirib ki, əlamətdar yubiley ərəfəsində Səbail rayonunda keçirilən silsilə tədbirlərdə müharibə illərində həlak olmuş döyüşçülərin xatirəsi böyük ehtiramla yad edilir, rayonda müharibə qəhrəmanlarının şərəfinə ucaldılmış abidələr və xatirə kompleksləri ziyarət edilir. Qeyd edilib ki, müharibə illərində döyüşən ordunun yanacaqla təminatında Azərbaycan xalqının böyük əməyi olmuş, SSRİ-də çıxarılan neftin 69 %-ni Bakı vermişdi. Müharibə illərində Azərbaycanın bütün bölgələrində 66 təxliyyə hospitalı yaradılmışdı. Səbail rayonunda isə 49, 189 və 190 saylı orta məktəblərdə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin və s. binalarda müharibə illərində təxliyyə hospitalları yerləşmişdi.

Səbail rayon icra hakimiyyətinin şöbə müdiri Pərvanə Kazımzadə isə çıxışı zamanı bildirib ki, Ulu Öndər Heydər Əliyev daim veteranlara xüsusi qayğı və diqqət göstərmiş, onların problemləri ilə yaxından maraqlanmışdır: “Ulu Öndər Heydər Əliyev bununla bağlı vurğulayıb ki, “Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, II Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz və ən mötəbər insanlarımızdır”. Qələbənin 70 illiyi ərəfəsində Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə ilə 1941-1945-ci illər müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyə görə orden və medallrala təltif olunmuş şəxslərə birdəfəlik maddi yardım verilməsi və növbədə olan bütün veteranların avtomobillərlə təmin olunması ölkə rəhbərliyinin veteranlara olan qayğısının bariz nümunəsidir”.

Tədbirdə çıxış edən veteranlar öz xatirələrindən soz açmış, onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Populyar müğənni Samiranın şən ifası tədbiri daha da şənləndirmiş, veteranlar gənclərlə birgə rəqs etmişlər. Tədbir iştirakçılarına Tibb Universiteti Tədris Terapevtik Klinikada pulsuz müayinə kuponları və Bazarstore Supermarketlər Şəbəkəsindən hədiyyələr təqdim edilmişdir.

*Rəfiqə HÜSEYNOVA*

# “Universitet kitabxanaları məktəblilərin gözü ilə”

## *Layihə çərçivəsində ümumi təhsil müəssisələri şagirdləri ADA Universitetinə səfər ediblər*

Dünən Təhsil Nazirliyinin “Universitet kitabxanaları məktəblilərin gözü ilə” layihəsi çərçivəsində ümumi təhsil müəssisələri şagirdlərinin ADA Universitetinə səfəri təşkil olunub. Layihənin əsas məqsədi şagirdlərdə ali məktəb kitabxanaları haqqında dolğun təsəvvürlərin formalaşdırılmasını və onlara əlavə biliklərin verilməsini təmin etmək, eləcə də məktəblilərin universitet kitabxanaları ilə yaxından tanış olmalarına əlverişli şərait yaratmaqdan ibarətdir.

Layihə çərçivəsində Bakı şəhərindəki Heydər Əliyev adına Lisey, 132-134 nömrəli Təhsil Kompleksi, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyi və Gənc İstedadlar Liseyinin hər birindən 8 nəfər IX - XI sinif şagirdi ADA Universitetinin kitabxanası ilə yaxından tanış olub. ADA Universiteti kitabxanasının dekanı Marta Spirz şagirdlərə rəhbərlik etdiyi kitabxana haqqında ətraflı məlumat verib, elektron və ənənəvi resurslardan istifadə imkanları barədə fikirlərini bildirib.

Məktəblilər ADA Universitetinin kitabxanası haqqında təəssüratlarını qeyd edib və əvvəlcədən müəyyənləşdirilmiş meyarlar üzrə qiymətləndirmə aparıblar. Qeyd edək ki, layihə çərçivəsində ümumi təhsil müəssisələri şagirdlərinin 6 ali məktəb kitabxanasına səfəri nəzərdə tutulub. Layihənin yekununda ali təhsil müəssisələri kitabxanalarının imkanları və oxucu məmnunluğu baxımından şəraiti məktəblilər tərəfindən qiymətləndiriləcək, bu sahədə zəruri hesab edilən təkmilləşdirici təkliflər irəli sürüləcək. Həmçinin, şagirdlər ali təhsil müəssisələrinin kitabxanaları ilə tanışlıqdan sonra kitabxanaçılıq, informasiya mübadiləsi, kitabxanaların tarixi, kitabxana-biblioqrafiya işi haqqında əldə etdikləri məlumatları öz həmyaşıdları ilə bölüşə biləcəklər.

*NƏZAKƏT*

# 1500 nəfər birdəfəlik müavinət aldı

Ölkəmizdə penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş, tibbi və sosial yardıma ehtiyacı olan şəxslər müvafiq qanunvericiliyə uyğun olaraq, minimum əmək haqqının 4 misli məbləğində (420 manat) birdəfəlik pul müavinəti ilə təmin olunur. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən xəbərə görə, cari ilin yanvar-mart aylarında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik pul müavinəti ilə təmin edilən belə şəxslərin sayı 1488 nəfər təşkil edib. ƏƏSMN tərəfindən penitensiar müəssisələrdə cəza müddəti başa çatmaqda olan şəxslərin gələcək məşğulluğunun dəstəklənməsi məqsədilə onların peşə reabilitasiyası işləri də görülür. Ötən il həmin şəxslərdən 230 nəfər, bu ilin ötən dövründə isə 16 nəfər əmək bazarında tələb olunan peşələr üzrə peşə hazırlığı kurslarına cəlb olunub. Hazırda ƏƏSMN-nin sifarişi ilə Qobustan rayonunda inşa olunan Penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunmuş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi sözügedən insanların sosial adaptasiyası işlərinin gücləndirilməsinə xidmət edəcək. Mərkəz penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunmuş şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının müdafiəsi, onların müvafiq sahələrdə yardımla təminatı yönündə işlər görəcək.



## TƏRS BAXIŞ

# Görəcəyik, axırda şampanı kim içəcək...

***AXCP-də bayram ovqatı yaranıb. Hətta partiyanın sədr müavini Fuad Qəhrəmanlı partiyadaşlarına söz verib ki, bayram ovqatına daha bir sevinc bəxş edəcək. Amma ABŞ Dövlət Departamentinin rəhbəri Con Kerrinin demokratiya və insan hüquqları məsələləri üzrə köməkçisi Tom Malinovskinin iki həftədən sonra Bakıya gözlənilən səfəri zamanı...Yəni görünür, Əli Kərimlinin müavini Fuad, Con Kerrinin müavini Tomun cibinə göz dikib ki, Con dayıları bunlara nə qədər dollar yollayıb?! Çünki bunlar Con üçün eləbelə işləmirlər. Məsələn, Azərbaycana qarşı sanksiyaların qatı tərəfdarı olan Tom Malinovski eynilə erməni marağından çıxış edir. Çünki ermənilər də Qərb təşkilatları qarşısında çıxış etdikləri vaxt Azərbaycana qarşı sanksiyaların irəli sürülməsini tələb edirlər. Eynilə də Fyad Qəhrəmanlının sədri Əli Kərimli həm erməni, həm də bəzi amerikalılar kimi ölkəmizə sanksiyaların tətbiq edilməsi üçün “sinov” gedir.***

### Viktoriya Nuland da Bakıya səfər etmişdi

Hələ bu harasıdır, Fuad Qəhrəmanlı gecələr ABŞ-ın rəsmi dövlət adamları ilə “watsapp”laşır. Bu vasitə ilə mesajlar da alır. Məsələn, Fuadın “Azadlığ”a verdiyi açıqlamasına görə, “ABŞ mesaj verir ki, demokratiya və insan haqları ilə bağlı problem həllini tapmayınca, münasibətlərin inkişafı mümkün deyil”. Demək belə çıxır ki, ABŞ Azərbaycanla strateji tərəfdaş olmaqdan ötrü Azərbaycanın istər enerji, istərsə də digər sahələrdə atdığı addımlarını dəstəkləyir, Azərbaycanın terrorla mübarizəsi çərçivəsində ölkəmizlə həmrəy olduğunu nümayiş etdirir (Ermənistanın terrorçu dövlət olduğunu da tanısaydı məsələ oları lap əla-R.R.), amma məsələ müxalifətə gəlib-çıxanda “münasibətlərin inkişafında problemlər yaranır” (?!-R.R.). Amma gəlin görək, AXCP sədrinin müavini niyə bu qədər özündənrazı və inamlı şəkildə danışır?

Məsələn, hələ bir müddət əvvəl, daha dəqiqi, fevral ayında Kerrinin digər müavini Viktoriya Nuland da Bakıya səfər etmişdi. Ancaq onun səfəri zamanı ABŞ siyasətçisi Əli Kərimli, Cəmil Həsənli və digər müxalifət “liderlərini” saya belə almamışdı. Üstəlik, Azərbaycanla əməkdaşlıq barədə çoxlu-çoxlu, hətta izafi dərəcədə müsbət ifadələr işlətmişdi. Məhz bundan sonra müxalifət-iqtidar dialoqunda yeni mərhələ start götürmüşdü. Ancaq həmin dialoqa Əli Kərimli qatılmamışdı. Bu yerdə adamdan soruşmaq lazımdır ki, ay adam, sən bir dialoqa get ki, qarnının ağrısını da bilək də. Nə dialoqa qatılırsan, nə də dialoqa qatılmaq çağırışlarına səs verən o biri müxalifət partiyalarına müxalifətçi kimi baxırsan. Deyirsən ki, burada mənəm, Bağdadda kor xəlifə.

### Tom Malinovskinin Əli Kərimlini ofsaydda qoymayacağını kim təmin edə bilər?

Sabah-birigün Con Kerrinin sanksiyapərəst müavini Tom Malinovskinin həmin pərəstliyindən əl çəkərək, Əli Kərimlini ofsaydda qoymayacağını kim təmin edə bilər? Yaxud Malinovskinin də öz həmkarı Nuland kimi Əli Kərimliyə tərs siyasi sillə vuraraq, Bakını tərk etməyəcəyini kim sübut edə bilər? Dünya kimi, siyasət də yumrudur. Sadəcə, dünya öz dəyişilməz oxu ətrafında fırlansa da, siyasət öz oxu ətrafında elə də sən deyən fırlanmır. Çünki siyasətin oxu bir balaca laxlayır. Laxladığına görə də Fuad Qəhrəmanlı Malinonskinin səfərin öncəsi verdiyi proqnozlarında yaman tələskənliyə yol verir. Halbuki elə həmin “Azadlığ”ın özü də yazır ki, Vaşinqtondakı mənbələr Malinovskinin səfərinin detallarını açıqlamır. Açıqlamırsa, onda arxı hoppanmamış hopp deməyə də lüzm qalmır. Fuad Qəhrəmanlı axecepeçilərə yeyib-içmək banketi verməyə tələsməsin. Görəcəyik, axırda şampanı kim içəcək...

*Rövşən RƏSULOV*

# Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır






## YAP YEVLAX

***Yevlaxda Ulu Öndər Heydər Əliyevin anadan olması ilə bağlı tədbirlər davam edir***

Dünən Yeni Azərbaycan Partiyası (YAP) Yevlax rayon təşkilatı və rayon mədəniyyət və turizm şöbəsinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş konsert proqramı təşkil olunub.

Tədbirdə YAP Yevlax rayon təşkilatının aparat rəhbəri Əli Quliyev, rayon mədəniyyət və turizm şöbəsinin rəis müavini Rafiq Məmmədov çıxış edərək Ulu Öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərindən geniş bəhs ediblər. Bildiriblər ki, Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirmiş olduğu inkişaf konsepsiyası bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq regionun ən güclü dövləti olan Azərbaycan qarşısına qoymuş olduğu hədəflərə nail olur. Beynəlxalq arenalarda Cənab Prezidentimiz İlham Əliyevin malik olduğu şəxsi keyfiyyətlər və üstün cəhətlər ölkəmizin nüfuzunun artmasında mühüm və əhəmiyyətli dərəcədə təsir göstərir. Bütün bu önəmli xüsusiyyətlər, tarixi hadisələr, təbii ki, Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Tədbir "Kür" instrumental estrada ansamblının ifasında konsert proqramı ilə davam etdirilib. Sonda ansambl YAP Yevlax rayon təşkilatı tərəfindən göstərdiyi ictimai fəallığa görə fəxri fərmanla təltif olunub.

## YAP AĞDAM






YAP Ağdam rayon təşkilatında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə tədbir keçirilib. Rayon təşkilatının şura üzvləri, ərazi ilk partiya təşkilatının sədrləri, rayonun idarə, müəssisə rəhbərləri, rayon Ağsaqqallar Şurası və partiyanın gənclər birliyinin üzvlərinin iştirak etdiyi tədbirdə YAP Ağdam rayon təşkilatının sədri İsgəndər Quliyev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin zəngin və çoxşaxəli fəaliyyətindən, ölkənin inkişafındakı xidmətlərindən danışıb: "Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə daim ölkəmizin inkişafı naminə, xalqın gələcəyi uğrunda əlindən gələni əsirgəməyib. Dünya şöhrətli siyasi xadimin uğurlu siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin gərgin səyi nəticəsində bu gün Azərbaycan müstəqil, ədalətli, demokratik, dünyəvi dövlət kimi daim inkişafdadır".

Tədbirdə Ağdam rayon icra hakimiyyətinin başçısı Raqub Məmmədov bildirib ki, 1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı: "Bir tərəfdən separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən iqtisadiyyatımız tamamilə dağılmışdır. Odur ki, ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə xalqın tanımış Lideri, zamanəsinin görkəmli dövlət və siyasi xadimi Heydər Əliyevə müraciət etdilər. Məhz Heydər Əliyevin bu müraciəti qəbul edərək yenidən hakimiyyətə qayıtması nəticəsində xalqımız bu bəlalardan xilas oldu".

Daha sonra "Ağdam" qəzetinin baş redaktoru Baxşeyiş Hətəmov, YAP Ağdam rayon təşkilatı qadınlar şurasının sədri Mətanət Misirxanova, YAP Ağdam rayon təşkilatı gənclər birliyinin sədr müavini Xəyalə Əliyeva, rayon təşkilatı gənclər birliyinin üzvü Xanım Əliyeva, təşkilatın gənclər birliyinin sədri Azər Əliyev və başqaları çıxış edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərindən bəhs etdilər.

Daha sonra Ulu Öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş inşa-yazı müsabiqəsinin qaliblərinə Fəxri fərmanlar və YAP-a yeni üzv qəbul olunmuş gənclərə partiya vəsiqələri təqdim olunub. Sonda Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığından bəhs edən videoçarx təqdim edilib.

## YAP SUMQAYIT






***Dünən YAP Sumqayıt şəhər təşkilatı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı tədbir keçirib***

Dünən Sumqayıt Texnologiya Parkında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı geniş tədbir keçirildi. Tədbir iştirakçıları ilk öncə Sumqayıt Texnologiya Parkının inzibati binasının foyesində Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub.

Ulu Öndərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə Sumqayıt Texnologiya Parkının icraçı direktoru Sahib Musayev açaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin, müstəqilliyimizin qorunub saxlanılmasında, ölkəmizin dünya dövlətləri arasında layiqli yer tutmasında müstəsna xidmətlər göstərdiyini bildirib. S.Musayev bu gün müstəqil və güclü Azərbaycan dövlətinin əldə etdiyi uğurların Ulu Öndərin müəyyənləşdirdiyi kursa əsaslandığını və bu uğurlu yolu Prezident İlham Əliyevin əzmlə davam etdirdiyini bildirib.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının təşkilat şöbəsinin müdiri, şura üzvü Vəzirxan Ənsərov Ulu Öndər Heydər Əliyevin doğum gününün milli bayram səviyyəsində qeyd olunduğunu bildirib. O, qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın inkişafı üçün çalışıb. T.Tağıyevin sözlərinə görə, Ümummilli Liderimiz Heydər Əliyev öz uzaqgörənliyi və qətiyyəti sayəsində ölkəmizin daxili və xarici uğurlarının təminatına imkan yaradıb: "Son illər Azərbaycanın bütün sahələrdə böyük inkişaf yolu keçməsi, dünyada iqtisadi artımın sürətinə görə liderliyi ələ alması Prezident İlham Əliyevin səyləri, eyni zamanda Ulu Öndər Heydər Əliyevin ideyalarının uğurla həyata keçməsi ilə əlaqədardır. Biz Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək bu gün ölkəmizin inkişafı istiqamətində görülən işlərə öz dəstəyimizi verməliyik".

*"SƏS"*

# "Demokratiya carçısı"nın problemi






Amerika Birləşmiş Ştatları hər zaman özünü "demokratiya carçısı" kimi təqdim edir, bu məqamdan istifadə edərək müxtəlif kiçik dövlətlər haqda mənfi fikirlər səsləndirir, bu mövzuda özünü arbitr kimi təqdim etməyə çalışır. Bu ölkə hər zaman kimisə qaralayanda, orada hüquqların məhdudlaşdırıldığı haqda geniş məlumatlarla çıxış edir və müxtəlif kəskin bəyanatlar səsləndirir. Həmçinin bu mövzuda ixtisaslaşmış bir sıra təşkilatlar var ki, onlar da geri qalmayıb silsilə bəyannamələr verir, ard-arda qətnamələr qəbul edirlər. Amma ABŞ-ın özündə və ya hər hansı digər Qərb dövlətində insan haqlarını aşağılayan hal baş verdikdə, nə həmin dövlətlərin özü, nə də məlum təşkilatlar bu barədə bir söz demirlər və heç nə olmamış kimi davranırlar.

Qərb Azərbaycandakı vəziyyətdən bərk "narahat" olur, silsilə çıxışlar, bəyanatlar ortaya qoyur. Bu arada Harvard Hüquq Məktəbinin professoru Annete Gordon-Reedin bir çıxışını xatırlamaq yerinə düşərdi. "Financial Times" qəzetində çıxış edən və ABŞ-ın irqçiliklə bağlı probleminin həll edilməli olduğunu bildirən amerikalı professor deyib ki, ABŞ-da bir çox qaradərili gənc şəxsən tanıdıqları adamlar haqda eyni əhvalat danışa bilərlər ki, qaradərilini polis güllələyib: "Vaxtilə Tomas Cefferson ABŞ-da qaradərililər üçün əsil vətəndaşlıq ola biləcəyinə şübhə edirdi, bu şübhə indiyə kimi qalır. Qaradərili amerikalılar ədalətə nail olmaqda hələ də çətinlik çəkirlər. İlin əvvəlində Yuta ştatında Bundy rançosunda yaşayanlar federal hökumətin hərəkətlərinə qarşı etiraza qalxdılar. Onlardan çoxu silahlı idi. Ancaq onlar ağdərili idilər. Onların qiyamı qarşıdurmaya gətirmədi. Onlara qarşı silahlı əsgər yeridilmədi".

Bu fakt bir daha deməyə əsas verir ki, digər dövlətlərin kiçik problemini qabardıb qınaq obyektinə çevirən ABŞ özü neçə əsr yaşı olan irqçilik problemini həll edə bilmir və ya etmək istəmir.

Təəssüf ki, ABŞ vətəndaşlarının gördükləri "polis şousu"nun siyahısı çox uzundur. Onlardan digər ən çox diqqət çəkəni isə "Wall Street-i işğal et" etiraz aksiyası zamanı yaşananlardır. Belə ki, Birləşmiş Ştatlarda və başqa ölkələrdə zənginlərlə yoxsulların gəliri arasındakı fərq uçurumuna, iqtisadi bərabərsizlik və işsizliyə etiraz edənlər maliyyə böhranı yaşayan bankların sadə insanların vergiləri hesabına öz problemlərini həll etdiklərini, bu üzdən sıravi vətəndaşların kreditə aldıqları evlərinin əllərindən alınmaları ilə üzləşdiklərini bildirirdilər.

Bütün bu faktlar, ABŞ-da irqçilik və ya digər problemlər üzündən baş verən qiyamlar, mitinqlər göstərir ki, bu ölkənin hakim təbəqəsi hələ də əsl demokratiyadan uzaq düşüncə, ideologiya ilə yaşayır, amma maraq dairəsində olan kiçik dövlətlərə "demokratiya çubuğu" ilə hücum edib onları hədələməklə məşğul olur. Güman var ki, bu həmlələrin nəticə vermədiyini görən ABŞ hökuməti bundan sonra heç bir dövlətin daxili işlərinə qarışmayacaq, diqqətini daxildəki narazı kütlənin haqlı tələblərinə yönəldəcək.

**RƏFİQƏ**

# Türkiyə Avropa İttifaqına daxil olacaqmı?

***Türkiyənin Avropaya inteqrasiyası istiqamətində xarici siyasətinin uğursuzluğunun səbəbi Şərqin sosio-mədəni, siyasi-mədəni xüsusiyyətləri ilə izah olunur. Ölkənin Avropa İttifaqına üzvlüyünə doğru yolu spesifik olmuşdur. Aİ-nin Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətlərində onlara maliyyə dəstəyinin göstərilməsi ilə yanaşı müəyyən tələblər qoyulsa da, daha çox üzvlüklə bağlı vədlər verilirdi.***



Amma Türkiyəyə gəlincə, burada üzvlüklə bağlı vədlər verilməsə də, şərtlər irəli sürülür. Aİ-nin standart tələblərindən başqa, burada Türkiyənin İslam aləminə mənsub olması ilə bağlı sivilizasiya məsələləri də qaldırılır, onun "Avropa xalqları ailəsi"nə aid edilə bilinməsi şübhə altına alınır. Türkiyənin Aİ-yə inteqrasiyası yolunda ciddi maneələrdən biri də həll olunmamış kürd problemidir.

Tarixə qısa nəzər salaq. İlk dəfə Türkiyə birləşmiş Avropanın (o zaman Avropa İqtisadi Birliyinin - AİB) qapılarını 31 iyul 1959-cu ildə döymüşdür. 1998-ci ilin iyun ayında Avropa Şurası özünün Kardifdəki sammitində qərara aldı ki, birlik haqqında Müqavilənin (1963-cü il) 28-ci maddəsinə və Avropa İttifaqının Lüksemburq sammitinin (1997-ci ilin dekabr ayı) tövsiyələrinə uyğun olaraq Avropa Komissiyası Türkiyə ilə bağlı məruzə təqdim edəcəkdir. O zaman Türkiyə hələ namizəddövlət statusunu da almamışdı. Onda "Türkiyə üçün Avropa strategiyası" adlanan sənəd qəbul edildi. 10 dekabr 1999-cu ildə Avropa Şurasının Helsinkidəki sammitində bəyan edildi ki, "Türkiyə digər namizəd ölkələrə tətbiq olunan meyarlar əsasında İttifaqa qoşulmağa namizəddir. Buna görə də qəbul olunmuş strategiya əsasında modernləşmə prosesini yaşayan Türkiyə islahatları həvəsləndirmək üçün digər namizəd ölkələr kimi daxilolmadan öncəki strategiyanın (pre-accession strategy) üstünlüklərindən faydalanacaqdır". Bu, Ankara üçün çox mühüm bir müddəa olmaqla ona digər namizədlərə tətbiq olunan münasibətin göstəriləcəyini vəd edirdi. Namizəd ölkə statusunu aldıqdan sonra Aİ ilə münasibətlər yeni siyasi çalarlar aldı. İkitərəfli əlaqələr daha sistemli və dinamik xarakter kəsb etməyə başladı.

Türkiyə qarşısında birləşmiş Avropaya yol açıldı. Bu, özlüyündə ölkədə daxili dəyişikliklərin mühərriki oldu. Təxminən iki ay (dekabr-yanvar) ərzində Məclis (Parlament) tərəfindən Türkiyənin adaptasiyası üzrə Dördüncü və Beşinci paket qüvvəyə mindi. Türkiyəyə siyasi islahatları davam etdirmək, Milli Təhlükəsizlik Şurasının və ordunun siyasi rolunun zəiflədilməsi hesabına qanunvericilik hakimiyyətini möhkəmləndirmək, Kipr Respublikasını tanımaq, Ermənistanla münasibətləri yaxşılaşdırmaq və ana dilində informasiya əldə etmək və təhsil almaq hüququ da daxil olmaqla milli və dini azlıqların hüquqi vəziyyətini Avropa qanunvericiliyinə uyğunlaşdırmaq tövsiyə olundu.

*Avropa İttifaqı ilə Türkiyə arasında münasibətlər daha real xarakter almağa başlayarkən digər bir amil də meydana gəldi - Aİ genişlənmədən yoruldu. Yunanıstanın iflası təhlükəsi də bu mənada Türkiyənin xeyrinə deyil.*

2013-cü ilin iyun ayında AFR hökuməti İstanbulun Gezi parkında etiraz aksiyalarının sərt şəkildə yatırılması ilə bağlı Türkiyə ilə danışıqları dayandırdı, lakin oktyabr ayının ortalarında onları bərpa etməyə razılaşdı. Bununla belə, Brüssellə Ankara arasında Kipr məsələsi ilə bağlı fikir ayrılıqlarının olması və bir çox Avropa siyasətçilərinin müsəlman ölkəsini birlikdə görmək istəməməsi nəticəsində danışıqlar dalana dirəndi.

Ölkənin Aİ-yə daxil olmasını istəyənlər qeyd edirlər ki, regionda aparıcı qüvvə olan və iri iqtisadiyyata, ölçüsünə görə NATO-da ikinci hərbi qüvvələrə malik olan, faydalı ehtiyatlarla zəngin regionlarla iqtisadi, siyasi, mədəni və tarixi əlaqələri olan Türkiyə Aİ-nin qlobal geostrateji oyunçu kimi mövqelərini möhkəmləndirər. Onların fikirlərinə görə, Türkiyənin Aİ-yə üzv olması Avropada pozitiv dəyişiklərə səbəb olar. Yeni dinamik oyunçunun qatılması Avropa iqtisadiyyatına rəqabət üstünlükləri verər. Avropanın işçi qüvvəsi bazarı gənc və nisbətən yaxşı təhsilli insanların axın etməsi hesabına möhkəmlənər və bütün bunlar yetərlidir ki, ölkənin Aİ-yə daxil olması ilə bağlı danışıqlar uğur qazansın.

Türkiyənin Aİ-yə daxil olmasının əleyhdarları belə fikir söyləyirlər ki, Türkiyə əslində, Avropa ölkəsi deyil, buna görə də o, hətta bütün tələblərə əməl etsə belə, onu qəbul etmək olmaz. Əks təqdirdə, onların sözlərinə görə, Aİ Türkiyədən gələn miqrantlarla dolacaq və onu idarə etmək mümkün olmayacaqdır. Aİ ölkələrinin vətəndaşlarının əksəriyyəti Türkiyənin quruma üzv olmasını istəmir.

Avropa İttifaqı ilə Türkiyə arasında münasibətlər daha real xarakter almağa başlayarkən digər bir amil də meydana gəldi - Aİ genişlənmədən yoruldu. Yunanıstanın iflası təhlükəsi də bu mənada Türkiyənin xeyrinə deyil.

Ankara üçün Aİ-nin ziddiyyətli davranışı çaşqınlıq saldı. Türklər dərk etdilər ki, avropalılar özlərinin NATO üzrə çoxdankı müttəfiqlərinə deyil, keçmiş sovet blokundan olan dövlətlərə üstünlük verərək Türkiyənin iqtisadi və sosial tərəqqi sahəsində əldə etdiyi nailiyyətləri lazımınca qiymətləndirmədilər. Bu, xüsusi bir psixoloji effekt verdi. Türkiyə Respublikasının özündə Aİ-yə daxil olma məsələsi son onilliklərin mühüm sosial-siyasi, iqtisadi və özünüidentifikasiya problemi, hətta dünyagörüşü problemi olsa da, zaman keçdikcə, bu məsələ öz kəskinliyini itirir: Aİ-yə inteqrasiyanın lehinə çıxış edən vətəndaşların payı 2015-ci ildə 75%-dən 20%-ə qədər azalmışdır. 2015-ci ilin yanvar ayında Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edirdi ki, onun ölkəsini Avropa İttifaqına inteqrasiya məsələsi artıq maraqlandırmır. Bir qədər öncə baş nazirin müavini Bülənd Arınc da həmin sözləri demişdi. Aİ işləri üzrə nazir Volkan Bozkır isə bildirdi ki, "üzvlüklə bağlı danışıqlar artıq Aİ-nin tələb etdiyi formatda davam edə bilməz". O vurğuladı ki, Türkiyədə demokratiya Avropanın bəzi ölkələrindən də yüksək səviyyədədir.

Sonda qeyd edək ki, Türkiyə hökumətinin son zamanlar yürütdüyü xarici siyasət ilk növbədə Türkiyənin Yaxın Şərqin lider dövləti statusunun təsdiqlənməsinə yönəlmişdir.

***Rövşən Hətəmov,***
***Tarix üzrə fəlsəfə doktoru***
***Newtimes.az***

# Növbəti "seçki" oyunu

## Erməni separatçıları saxta "seçki" ərəfəsində

***Məlum olduğu kimi, bütün dünya dövlətlərinin, eləcə də beynəlxalq təsisatların Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qəbul etdikləri işğal altında olan bu torpaqlarda qondarma rejim mayın 3-də "parlament seçkiləri" keçirməyi qərara alıb. Azərbaycan ərazilərinin hərbi işğalı və etnik təmizləmənin davam etdiyi bir zamanda qondarma separatçı rejimin strukturlarına "seçki"lərin keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyasının və beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulmasıdır. Ona görə də bu "seçki"lərin heç bir hüquqi qüvvəsi ola bilməz. Eyni zamanda bu "seçkilər" erməni tərəfinin Azərbaycanı növbəti dəfə təxribata çəkməsi kimi də qiymətləndirmək mümkündür.***



Doğrudur, bundan əvvəl də qondarma Dağlıq Qarabağda həm qanunsuz "prezident seçkiləri", həm də "parlament seçkiləri" keçirilib və separatçıların təşkil etdikləri "seçkilər" beynəlxalq səviyyədə qəbul olunmayıb. Lakin onu da vurğulamaq lazımdır ki, bu saxtakarlığın qarşısını almaq üçün hələ bu günə kimi heç bir tədbir görülməyib. Belə ki, Dağlıq Qarabağ torpaqlarının işğalı faktını təsdiqləyən BMT-nin Təhlükəsizlik Şurasının bu barədə qəbul etdiyi 4 qətnaməsi, Avropa İttifaqı, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların qərar və bəyannamələri mövcud olduğu halda erməni separatçıları istənilən ölkəyə səfər edir, hətta bəzi hallarda hegemon dövlətlərlə işgüzar danışıqlar da apara bilirlər.

### Ekspertlərin fikrincə, bu halda Azərbaycan sülh danışıqlarını dayandırmalıdır

Ekspertlərin sözlərinə görə, bu "seçkiləri" erməni tərəfinin Azərbaycanı növbəti dəfə təxribata çəkməsi kimi də qiymətləndirmək mümkündür.

Millət vəkili Zahid Oruc qəzetimizə verdiyi açıqlamasında bildirib ki, qondarma "Dağlıq Qarabağ Respublika"sında 1994-cü ildən başlayaraq qanunsuz seçkilər keçirilir və bununla da ermənilər həmin "hakimiyyət" orqanlarına legitimlik xarakteri qazandırmağa cəhdlər göstərirlər: "Baş verən proses nəinki hüquqi müstəvidə deyil, eləcə də açıq-aşkar beynəlxalq hüququn tələblərinə ziddir. Çünki Azərbaycan ərazisi kimi BMT-də tanınmış və bütün beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü qəbul etdiyi bir şəraitdə orada hansı xarakterli seçkilərin keçirilməsinin heç bir önəmi yoxdur. Yəni istər prezident, istər parlament, eləcə də digər "hakimiyyət təsisatları" heç bir halda Azərbaycanın razılığı olmadan seçki keçirməklə beynəlxalq tanınma qazana bilməz. Bu qondarma "Dağlıq Qarabağ Respublika"sını xarici əlaqələr qurumuluğuna və yaxud onun beynəlxalq təşkilatlarda təmsilçiliyinə aparıb çıxarmayacaq. Yəni qondarma "Dağlıq Qarabağ Respublikası" heç vaxt BMT-də təmsil olunmayacaq".

Z.Oruc onu da vurğulayıb ki, Ermənistanın özü qeyri-demokratikdirsə, qondarma qurumda hansı qanunçuluqdan söhbət gedə bilər: "Bu torpağı özü, onun üzərindəki bütün hüquqlar, hərəkətlər, hər hansı bir hakimiyyət subyektlərinin yaradılması iradəsi Azərbaycana məxsusdur. Ümidvaram ki, sonda belə də olacaq".

Azərbaycan Sosial-Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə isə Ermənistanın BMT-nin qətnamələrinə məhəl qoymamaqla dünya birliyinə qarşı çıxdığını söyləyib. A.Əlizadənin sözlərinə görə, Ermənistan Rusiyanın və digər xarici havadarların siyasi və hərbi yardımı ilə Azərbaycan torpaqlarını işğal etməklə özlərinə qondarma rejim qurublar: "Məsələ burasındadır ki, dünya birliyi tərəfindən tanınmamış qondarma qurumun keçirdiyi "seçki"yə müşahidəçilər gələcək. Bax, günah müşahidəçilərdədir. Onlar bir növ ilana zəhər daşıyan kərtənkələdir".

Millət vəkili Bəxtiyar Əliyev isə bildirib ki, Avropa Şurası Parlament Assambleyası Ermənistanın işğalçı siyasətinə qiymət verərək onun üzvlük məsələsinə yenidən baxmalıdır: "Çünki bu qondarma "seçkilər"in heç bir hüquqi əsası yoxdur. Azərbaycanın işğal edilən əraziləri ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, ATƏT və Avropa Şurasının qətnamələri var və hesab edirik ki, işğal edilən ərazilərdə hər hansı seçkinin keçirilməsi yolverilməzdir". Millət vəkili, həmçinin bildirib ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda qondarma separatçı rejimin "parlamenti"nə saxta "seçkilər"in keçirilməsinin planlaşdırılması Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə sülh danışıqlarına böyük zərbədir: "Bu cür qondarma "seçkilər"in keçirilməsi danışıqlar prosesi üçün çox böyük əngəldir və çox böyük təəssüf doğurur ki, nə üçün həmsədrlər bununla bağlı ciddi bəyanat vermirlər, bunu qeyri-qanuni adlandırmırlar və Ermənistanı bu cür qeyri-qanuni hərəkətlərdən əl çəkməyə və danışıqlar prosesini pozmamağa məcbur etmirlər".

Politoloq Qabil Hüseynli isə bildirib ki, qondarma Dağlıq Qarabağ rejiminin keçirəcəyi "parlament seçkiləri"nin heç bir hüquqi əsası yoxdur: "Çünki keçiriləcək seçkilər heç bir ölkə tərəfindən tanınmayacaq. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hazırda danışıqlar prosesi davam etdirilir. Danışıqlar prosesində normal mühitin yaradılmasına cəhd göstərilir. Bu seçkilərin keçirilməsi ilə onlar normal mühiti nəinki korlayar, həm də danışıqlar prosesində çox ciddi əngəllər yaradarlar. Zənnimcə, ATƏT-in Minsk Qrupu öz gücünü məhz burada göstərməlidir. Bu məsələdə məhz həmsədrlərin üzərinə çox böyük səlahiyyətlər düşür. Qondarma rejimin bu seçkiləri keçirməməsi üçün ən azı BMT və ATƏT səviyyəsində qərar verilməlidir".

**RƏFİQƏ HÜSEYNOVA**

# Ermənistana təzyiq mexanizmiləri tətbiq olunmalıdır

*Elman Nəsirli: "Dağlıq Qarabağ münaqişəsi ətrafında gedən danışıqlar prosesi dalana dirənməyə gətirib çıxarır"*



Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları prinsipləri əsasında həlli istiqamətində fəallıq göstərsə də, işğalçı ölkə qeyri-konstruktiv mövqe və təxribatçı hərəkətlər nümayiş etdirməklə danışıqlar prosesini pozmağa çalışır. Bundan sonra Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hansısa irəliləyişlər gözləməyə dəyərmi? Siyasi elmlər doktoru, politoloq Elman Nəsirli qəzetimizə verdiyi açıqlamasında bildirdi ki, "Azərbaycan Prezidenti İlham Əliyev bu ilin əvvəlində Münhen Təhlükəsizlik Konfransının gedişatında bir daha səsləndirdi və qeyd etdi ki, Ermənistan təkbaşına belə aqressiv bir siyasət yeridə bilməzdi. Əgər Ermənistan lazımi cavabını alsaydı, münaqişə öz həllini çoxdan tapardı. Prezidenti İlham Əliyev onu da qeyd etdi ki, vəziyyətin paradoksallığı ondadır ki, Ermənistana ATƏT-in Minsk Qrupunun sədr dövlətləri dəstək verirlər. Beləliklə də, işğalçı ölkə olan Ermənistan araxayın olaraq öz aqressiv siyasətini davam etdirir. Həmsədr dövlətlər status-kvo vəziyyətinin dəyişməsinin vacibliyini bəyan edirlər, amma bu reallıqdan irəli gələn addımları atmırlar. Ermənistan status-kvo vəziyyətini dəyişməklə bağlı heç bir addım atmır. Təbii ki, cinayətkar bir ölkə layiq olduğu cəza ilə cəzalandırılmayanda, o, növbəti cinayətləri törətməyə şirniklənmiş olur".

Politoloqun sözlərinə görə, ATƏT-in Minsk Qrupu Ermənistana qarşı xüsusi təzyiq mexanizmi və vasitələrindən istifadə etməlidir: "Təəssüf ki, işğalçı ölkəyə qarşı müvafiq təzyiq mexanizmi formalaşdırılmayıb və bu, Ermənistanın qeyri-konstruktiv mövqeyini davam etdirməsinə zəmin yaradır. Bir sözlə, Ermənistandan qarşıdakı müddətdə hər hansı bir pozitiv addımı gözləmək üçün real bir əsas yoxdur. Bu da Dağlıq Qarabağ münaqişəsi ətrafında gedən danışıqların prosesinin dalana dirənməsinə gətirib çıxarır".

E.Nəsirli onu da bildirdi ki, Rusiyaya münasibətdə çox qətiyyətli mövqe nümayiş etdirən Qərb Ermənistana qarşı loyal münasibət göstərir. Bu isə sözügedən dövlətlərin münaqişənin həllinə ikili yanaşmasının göstəricisidir.

**GÜLYANƏ**

# Cimmi Karter Rusiyanı dəstəklədi



"Mən ümid edirəm ki, Obama Ukraynaya silah göndərməyəcək". Axar.az xəbər verir ki, bu açıqlama ilə ABŞ-ın eksprezidenti Cimmi Karter çıxış edib. Onun sözlərinə görə, Krımın Rusiyanın tərkibinə girməsi demək olar ki, qaçılması mümkün olmayan addım idi: "Moskva tam şəkildə Minsk danışıqlarının reallaşdırılmasını dəstəkləyir. Rusiya bu cür addımları Kiyev və Vaşinqtondan da gözləyir. Mən ümid edirəm ki, Obama Kiyevə heç bir silah göndərməyəcək". Qeyd edək ki, Krım 2014-cü ilin martında Rusiyaya tam şəkildə anneksiya olunub.

# Türkiyə Avropanı "erməni soyqırımı" ilə sındırdı

Türkiyə Avropa Parlamentinin 1915-ci il hadisələri ilə bağlı qəbul etdiyi "soyqırım" qərarından imtina edib. Axar.az xəbər verir ki, AP-nin qəbul etdiyi qərar aprelin 29-da Türkiyənin AB-dəki daimi nümayəndəliyinə təqdim edilib. Lakin Türkiyə AP-nin 1915-ci il hadisələri barədə qəbul etdiyi "soyqırım" qərarından imtina edib və sənədi dünən geri təhvil verib. Qeyd edək ki, aprelin 15-də AP 1915-ci il hadisələrini "erməni soyqırımı" olaraq tanıyıb. AP-nin məcburi xüsusiyyət daşımayan qərarında Türkiyəyə keçmişiylə üzləşməsi və bu iddiaları qəbul etməsi barədə çağırış edilmişdi. Türkiyə isə AP-nin bu qərarını özlərinə geri qaytaracaqlarını bildirmişdi.

# Poroşenko Putindən Savçenkonu istədi



"Rusiya Prezidenti Vladimir Putin Donbasa sülhməramlı kontingentin yerləşdirilməsi imkanları ilə bağlı razılaşıb". Axar.az xəbər verir ki, bu barədə informasiyanı Ukrayna Prezidentinin Mətbuat Xidməti Fransua Olland, Angela Merkel, Pyotr Poroşenko və Vladimir Putin arasındakı telefon danışığından yayıb. Mətbuat Xidmətinin məlumatına görə, tərəflər ATƏT-in təmas xəttində monitorinq keçirilməsinin vacibliyini vurğulayıblar. Bundan başqa Poroşenko Putindən pilot Nadejda Savçenkonun da azad olunmasını istəyib.

# Dağıdıcı müxalifətin qul psixologiyası

*I Avropa Oyunlarının başlanmasına bir ay yarımdan da az vaxt qalır. Azərbaycan ümumavropa ailəsinin tarixində ilk dəfə keçiriləcək bu möhtəşəm idman bayramına ciddi hazırlaşır. Lakin anti-Azərbaycan dairələrin tərkibində ermənilərin aparıcı yer tutması bəlkə də, başa düşüləndir. Lakin özünü azərbaycanlı adlandırıb ermənin çağırışına qoşulanları, hətta bu cəfəngiyyatları həqiqət kimi başqalarına da qəbul etdirməyə çalışanları heç cür anlamaq olmur. Söhbət ermənidən artıq erməni olanlardan gedir.*

Çünki bu gün Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sisteminin ən fəal və müstəqil aktoru kimi qlobal siyasətin formalaşdırılmasında, təhlükəsizlik və əməkdaşlıq platformasının yaradılmasında əhəmiyyətli rol oynayan, eyni zamanda, dünya enerji təhlükəsizliyi arxitekturasının qurulmasında önəmli yer tutan dövlətə çevrildikcə, Azərbaycan regionun sabitləşdirici amili imicini qazandıqca antimilli qüvvələr narahat olmağa başlayır. Bu səbəbdən də anti-Azərbaycan dairələri müxtəlif vasitələrdən istifadə etməklə ölkəmizə təzyiq etməyə cəhdlər göstərirlər. Lakin istənilən halda məkrli qüvvələrin planlarının reallaşdırılmasında əsas icraçılar qismində Azərbaycanın dağıdıcı müxalifəti çıxış edir. Bu, o dağıdıcı müxalifətdir ki, 20 ildən artıq müddətdir ki, xəyanət mövqeyi tutub və ölkəmizdə keçirilən mötəbər tədbirlərdə, eyni zamanda bütün seçkilərdə anti-Azərbaycan qüvvələrinin "siyasi mətbəx"inə işləyib. Həm xaricdəkiləri, həm də "sapı özümüzdən olan baltalar"ın Avropa Oyunları ərəfəsində də eyniadlı mənzərəni görüb təəccüblənməsin. Çünki onların xisləti və xəbisliyi xalq tərəfindən dəfələrlə görünüb. Həmin adamlardan soruşmaq lazımdır ki, sən bu torpağın çörəyini yeyirsən, suyunu içirsən, havasını udursan, belə olan halda bu ölkənin uğurları səni niyə sevindirmir? Sən öz dövlətinin və millətinin uğurlarını top-tüfəngin qabağına verəndə, hansısa beynəlxalq səviyyəli dələduza dəstəkçi olanda, xalqın nifrətini birə- on qat artırmağını düşünürsənmi? Axı bu, bir tək Azərbaycan iqtidarının deyil, bütünlükdə Azərbaycanın adına yazılan təbdirdir! Doğurdan da, bunu anlamırsan. Anlamırsan ki, sizin qatarınız çoxdan gedib.



Dövlətimizin başçısı İlham Əliyevin bildirdiyi kimi, daxili vəziyyətlə bağlı bizim heç bir problemimiz yoxdur: "Bizə qarşı çıxmaq istəyənlər isə öz iç üzünü bir daha açıblar. Onlar bir daha göstərirlər ki, müstəqilliyin nə olduğunu başa düşmürlər. Bir daha göstərirlər ki, qul psixologiyası ilə yaşayırlar. Bu qul psixologiyası ondan ibarətdir ki, daim böyük qardaş axtarışındadırlar. Daim kiminsə ayağına yıxılmaq istəyirlər. Daim kiminsə ətəyindən tutub yardım diləyirlər. Budur, bugünkü Azərbaycanın siyasi mənzərəsi: bir tərəfdə Azərbaycan iqtidarı, müstəqil siyasət, ləyaqətli siyasət və heç kimin qarşısında baş əyməmək siyasəti, digər tərəfdə öz şəxsi maraqlarını təmin etmək üçün istənilən yola getməyə hazır olan antimilli, satqın, xain - onlara heç qüvvə də deyə bilmərəm - ünsürlər, qruplar. Bax budur, bugünkü siyasi palitra".

Göründüyü kimi, Azərbaycan xalqı dağıdıcı müxalifəti heç bir zaman dəstəkləməyib və onları kandarda, qapı arxasında qoyub, bu siyasi ünsürlərə öz yerini göstərib.

### Siyasətdə ən "axırıncı" variantlar nədirsə, Kərimli onu sınaqdan keçirib

Bütün dövrlərdə "təxribat" anlayışı AXCP sədri Əli Kərimli və onun dəstəsinin əsas iş prinsiplərindən olub və xaricdəki dəstəkçilərin diqqətini öz üzərlərinə hər zaman bu formada yönəldiblər. Bu gün də I Avropa Oyunları ərəfəsi yazıq, məzlum, əzilmiş obraz yaradıb özləri üçün xal toplamağa, "hərif" tapdıqda isə, bu vasitə ilə qrant, pul-para qoparmağa çalışıblar. Əli Kərimli və AXCP üçün kişilik, kişi kimi mübarizə aparmaq adında anlayış keçərli deyil. Çünki siyasətdə ən "axırıncı" variantlar nədirsə, Kərimli onu sınaqdan keçirib. Elə, "Eurovision-2012" Mahnı Müsabiqəsinin keçirilməsi, London Olimpiadasında Azərbaycan idmançılarının qələbə qazanmağa hazırlaşdıqları bir vaxtda icazəsiz aksiyalar keçirməyə cəhd göstərməsi, siyasi sabitliyə zərbə vurmağa çalışması dağıdıcı müxalifətin həmin anti-Azərbaycan fəaliyyətinin əyani sübutlarıdır. Məhz bu səbəbdəndir ki, dağıdıcı müxalifətin mitinqlərində Azərbaycan xalqı onlara dəstək olmayıb.

Ölkə başçısının dediyi kimi, xalq görür ki, kim ölkəni hara aparır və kim ölkəni hara aparmaq istəyir: "Artıq Azərbaycan 20 ildən çoxdur ki, müstəqil dövlətdir. Bundan böyük xoşbəxtlik ola bilməz. Nəyin bahasına olursa-olsun, müstəqilliyi qoruyacağıq, Azərbaycanın uğurlu inkişafını təmin edəcəyik".

Beləliklə də, istər "sapı özümüzdən olan yerli baltaların", istərsə də onlara himayədarlıq edən erməni lobbisinin və Qərb təşkilatlarının Avropa Oyunlarına qarşı başlatdıqları "mücadilə" elə onların ağır məğlubiyyətləri ilə nəticəsini tapmaqdadır.

**Rəfiqə HÜSEYNOVA**

# AXCP Müsavatı yox etməkdə israrlıdır

## *Hələlik isə partiyalar arasında əsəb müharibəsi gedir*

Müsavat partiyasında davam edən gərginlik hələ də qarşıdurmalara səbəb olmaqdadır. Belə ki, Qubad İbadoğlu probleminin ardınca, Vurğun Əyyub amilinin ortaya çıxması, partiyadaxili narazı elektoratın rəhbərliyin qəbul etdiyi qərarlara baş əyməməsi sözügedən amili daha da qabartmaqdadır. Çünki son addım illərini Müsvat partiyasının siyasətinə qurban vermiş Vurğun Əyyubun adıçəkilən təşkilat sıralarından çıxarılmasıdır ki, hələlik, başqan Arif Hacılı buna getməyib. Hansı ki, sabiq başqan İsa Qəmbər ona bu tövsiyəni verib. Eyni zamanda, Hacılının qardaşı Mustafa Hacıbəyli də tezliklə Vurğun Əyyubun Müsavat sıralarından çıxarılması tələbini irəli sürməkdə davam edir.

### Daha bir maraqlı məqam Müsavatın Suraxanı rayon təşkilatının Arif Hacılının istefasını tələb etməsidir

Düzdür, o, partiyanın ali orqanı hesab edilən məclis sıralarından uzaqlaşdırılıb. Ancaq buna rəğmən, təşkilatın üzvü olaraq, hələ də müəyyən spektrlərdə sözünü deməkdə davam edir. Məsələn, Müsavat partiyasının bütövlükdə rəhbər strukturlarının legitimliyini qəbul etməyən Suraxanı rayon təşkilatı Vurğun Əyyubun parlament seçkilərinə namizədliyini irəli sürüblər. Baxmayaraq, Arif Hacılı bəyan etmişdi ki, namizədlərin irəli sürülməsi divanla razılaşdırılmalıdır. Lakin daha bir maraqlı məqam Müsavatın Suraxanı rayon təşkilatının Arif Hacılının istefasını tələb etməsidir. Hələ bir müddət öncə, rayon təşkilatının sədri Rövşən Dəmirli bildirmişdi ki, artıq bununla bağlı məsələ qaldırılıb.

### Rövşən Dəmirlinin Əli Kərimli ilə isti münasibətlərinin olması barədə faktlar kifayət qədərdir

Ancaq bu arada növbəti bir məsələ özündə bəzi detalları açıqlamış olur. Belə ki, Suraxanı rayon təşkilatının bütün üzvləri Vurğun Əyyubun qatı tərəfdarları qismində çıxış edirlər. Hətta rayon təşkilatının sədri Rövşən Dəmirlinin də təyinatının zamanında Vurğun Əyyub tərəfindən önə sürülməsi kimsəyə sirr deyil. Lakin orada olan nüans Rövşən Dəmirlinin Vurğun Əyyubla yanaşı, həm də AXCP ilə, xüsusilə, Əli Kərimli ilə isti münasibətlərinin olması barədə faktlar kifayət qədərdir. Və məhz Müsavatın yeni rəhbərliyi də Rövşən Dəmirlinin Əli Kərimli tərəfindən idarə olunmasından xəbərdardır. Buna isə bir sıra səbəblər var.

Məsələn, cəbhə sədri hələ də 2000-ci ilin qısasını Müsavatdan almaq həvəsi ilə yaşayır və əlinə düşən bütün imkanlardan maksimum şəkildə yararlanmağa yollar axtarmaqdadır. Rövşən Dəmirli isə onun üçün ən rahat vasitələrdən biridir. Çünki Əli Kərimliyə kifayət qədər aydın idi ki, başqan dəyişikliyi Müsavatda kifayət qədər böyük itkilərlə müşayiət olunacaq. AXCP sədri bu ehtimalında yanılmamışdı və olanlar da oldu.

### Arif Hacılı da Əli Kərimlinin bu planlarından xəbərdar olduğu üçün, tələm-tələsik qərarlar vermək istəmir

İndi isə onun əlində Müsavatı tamamilə çökdürmək üçün yaxşı fürsət yaranıb. Əgər Kərimli bu fürsəti əlindən versə, onsuz da AXCP-də də baş verən son narazılıqlar prosesinin qarşısını ala bilməyəcək. Bu baxımdan, o, AXCP-də yaranmış çətin vəziyyəti bir kənara qoyaraq, onun yolunda dayanan əsas maneə - Müsavat partiyasını yox etmək istiqamətində planlar hazırlayır. Məsələn, əgər Arif Hacılı narazı Suraxanı rayon təşkilatını buraxarsa, həmin təşkilat bütünlüklə AXCP-yə transfer oluna bilər. Bu amil isə AXCP-nin Müsavat üzərindəki gücünü daha da artırmış olar. Görünür, Arif Hacılı da Əli Kərimlinin bu planlarından xəbərdar olduğu üçün, tələm-tələsik qərarlar vermək istəmir. Ancaq görünən budur ki, indilərdə olmasa da, payızda hər iki siyasi təşkilat arasında ciddi qarşıdurmalar yenidən alovlanacaq. Hələlik isə, partiyalar arasında əsəb müharibəsi gedir.

**Afət TAHİRQIZI**

# "Elə bilirsiniz Con Kerri başınızı sığallayacaq?!



Müasir Müsavat Partiyası (MMP) Azərbaycanda keçiriləcək Birinci Avropa Oyunları ilə bağlı ölkədə fəaliyyət göstərən siyasi partiyalar və qeyri hökumət təşkilatlarına müraciətlə əlaqədar tədbir keçirib. SİA-nın məlumatına görə, tədbirdə MMP-nin sədri Hafiz Hacıyev və rayon təşkilatlarının nümayəndələri iştirak ediblər. Partiya sədri çıxışı zamanı Birinci Avropa Oyunları ərəfəsində fəallaşan anti-Azərbaycan qüvvələri haqqında danışaraq qeyd edib ki, bu qüvvələr ölkəmizi dünyaya yaxşı mənada təqdim etmək əvəzinə, ermənipərəst mövqedən çıxış edirlər: "Müəyyən vəsait qarşılığında ermənilərlə, ermənipərəst qüvvələrlə iş birliyində olanlar yalan məlumat verməyi dayandırmalıdır. Heç olmasa ümumi milli maraqlar xatirinə Birinci Avropa Oyunları ərəfəsində bu oyunların yüksək səviyyədə keçirilməsi üçün bütün səylərimizi birləşdirib dövlətimizin yanında olaq".

Hafiz Hacıyev AXCP sədri Əli Kərimliyə, Milli Şuranın sədri Cəmil Həsənliyə, eləcə də erməni lobbisinin maliyyə dəstəyi nəticəsində ABŞ və Qərbin verdiyi təlimatlara uyğun anti-Azərbaycan kampaniyasında iştirak edən QHT-lərə də müraciət edib. Partiya sədri bildirib ki, onların xarici qüvvələr qarşısındakı xidmətlərinə görə, heç də başları sığallanmayacaq: "Siyasi qısasçılığınızı, böhtanlarınızı, erməni diasporasına işləməyinizi bir müddət də olsa dayandırmalısınız. Əks təqdirdə heç kim yaxşı mənzərənin şahidi olmayacaq. Elə bilirsiniz sifarişini yerinə yetirdiyiniz Con Kerrilər başınızı sığallayacaq?! Ağlınızı gec də olsa, başınıza yığın. Əli Kərimli və Cəmil Həsənlilər satqınlığın daşını ətəklərindən atıb doğru yola qayıtmalıdırlar. Ailələrini idarə edə bilməyənlər dövləti idarə etmək həvəsinə düşüblər. Həmin insanlara demək istərdim ki, gedin birinci özünüzü idarə edin sonra dövləti". Daha sonra mövzu ətrafında partiyanın digər funksionerlərinin fikirləri dinlənib və onlar ölkədə fəaliyyət göstərən siyasi partiya və vətəndaş cəmiyyəti institutlarının birgə şəkildə Azərbaycan əleyhinə çıxış edən qərəzli qüvvələrə qarşı qəti mübarizə aparmağa çağırıblar.

***XX əsrin ortalarında ABŞ-da medianın azadlığı və məsuliyyəti barədə polemikalar, diskussiyalar gedirdi. Bu polemikalardan çıxan nəticə bundan ibarət idi ki, "azadlıq özünəməxsus əxlaq yaradır. Əgər bu qanun deyilsə, onda vəzifədir". Bu fikrin tərəfdarları oxucuların və dinləyicilərin hüquqlarını KİV nümayəndələrinin hüquqlarından mühüm hesab edirdilər. Bəziləri belə düşünürlər ki, media azaddır - məsuliyyətli olmaq üçün azaddır.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

# Hüquqi dövlətdə jurnalistik peşə etikası



B.Quliyevin qeyd etdiyi kimi, sosial məsuliyyət anlayışını dəqiqləşdirmək üçün 1940-cı ildə Çikaqo Universitetinin professoru Robert M.Nitchiscin sədrliyi ilə məşhur komissiya yaratdılar. Bu komissiya kütləvi kommunikasiya azadlığı və sosial məsuliyyət mövzusunda silsilə yazılar dərc etdi. Komissiyanın işi media tərəfindən birmənalı qarşılanmadı. Mətbuat Azadlığı Komissiyası istehlakçıların azadlıqlarına təsir edən şəraitin kökündən dəyişdirilməsi haqqında bəyanatla çıxış etdi, informasiyaların müxtəlifliyinin məhdud olduğuna işarə edərək cəmiyyətin təkcə xəbərlərin keyfiyyətindən, doğruluğundan və yayılmasından asılı olmadığını, "ictimai fikrin siyasətdə, daxili və beynəlxalq məsələlərdə əsas amil olduğu bir şəraitdə narahatlıq doğurduğunu göstərirdi: "Aydındır ki, sosial məsuliyyətin başqa şəkil aldığı yeni dövr gəlmişdir. "Mətbuat istifadəçiləri tənzimlənməyən təşəbbüslərin ümidinə buraxıla bilərmi" sualı çox mühüm bir məsələyə çevrilmişdi".

Komissiyanın bəyanatında KİV-in azadlığının, oxucuların və cəmiyyətin "qeyri-iradi qorunmasının yetərli olmadığı" diqqətə çatdırıldı. Mətbuatın mütləq azadlığı tərəfdarları belə suallarla üz-üzə qalmalı oldular. Medianın cəmiyyət qarşısında əxlaqi məsuliyyəti varmı? Medianın hansı məsuliyyəti olmalıdır? Bu məsuliyyətlər kimin üçündür? Bu məsuliyyətləri kim müəyyənləşdirir? Onları kim və necə gücləndirməlidir?

Buradan sosial məsuliyyətin mahiyyəti, strukturu, obyekti və subyekti üzə çıxır. Sosial məsuliyyətə dair baxışları tənqid edənlər də vardı. ABŞ-lı professor J.Herbert Altstull "sosial məsuliyyət" anlayışını "istənilən məna verən" "qeyri-müəyən ifadə" kimi səciyyələndirir. Digər ABŞ-lı professor Con Merrill fərdi məsuliyyətlə yanaşı sosial məsuliyyət problemini də tənqid edərək onu Amerika KİV-nin müstəqilliyilə əlaqələndirir: "Amerikalı jurnalistlərin çoxu özlərini müstəqil hesab edirlər... onlar azadlıqdan və şəxsi məsuliyyətdən sosial etikaya və alturizmə doğru qaçırlar. Amerikalı jurnalistlər Qərb dünyasının əksər jurnalistləri kimi hələ də azadlıq prinsiplərini oxuya-oxuya "sosial məsuliyyət bayrağı altında" addımlayırlar".

C.Merriellin fikrincə, media Mətbuat Azadlığı Komissiyasının təkliflərini sanki qəbul etmiş, sosial və əxlaqi məsuliyyətə malik olduğunu təsdiq etmişdir. Bütün KİV aşağıdakı prinsiplərə əməl etməlidir: obyektivlik, balanslılıq qərəzsizlik, məlumatın tamlığı, həqiqilik, informasiyanın mötəbərliyinin bir çox mənbələr vasitəsilə dəqiqləşdirilməsi, şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunması, milli və dövlət maraqlarının ön planda tutulması, peşəkarlıq və məsuliyyət.

Göründüyü kimi, KİV-in bütün fəaliyyətində sosial məsuliyyət aparıcı yer tutur. Sosial məsuliyyət konsepsiyası bir sıra beynəlxalq təşkilatların - Beynəlxalq Jurnalistlər Federasiyasının (BJA), Avropa Şurasının (AS) bəyannamələrində öz əksini tapmışdır. BJF 1954-cü il aprelin 25-dən 28-dək Bordoda keçirilən II Ümumdünya Konqresində "Jurnalist davranışlarının prinsipləri haqqında Bəyannamə" qəbul edi. Bəyannaməyə BJF-nin Helsinkidə 1986-cı il iyunun 2-dən 6-dək keçirilən XVIII Ümumdünya Konqresində müəyyən düzəlişlər edilmişdir. Bəyannamədə jurnalistlərin peşəkar davranışının standartında sosial məsuliyyət əsas yer tutur:

Jurnalist həqiqətə və cəmiyyətin həqiqəti bilmək hüququna hörmət etməli;

İnformasiyanı qərəzsiz toplamağa, qərəzsiz şərh və tənqid hüquqlarını qorumağa borcludur;

Mənbəyi məlum informasiya yaymalı, onu saxtalaşdırmamalıdır;

İnformasiya alarkən yalnız vicdanlı metodlardan istifadə etməlidir;

Ziyankar informasiya verməməli, belə informasiyaların təkzib olunmasına çalışmalıdır;

Peşə sirrini, dövlət sirrini qorumalı, gizli informasiya yaymamalıdır;

Diskriminasiya çağırışlarına yol verməməli, bunun məsuliyyətini dərk etməlidir;

Yalançı və əsassız informasiyalar verməməlidir;

Jurnalist bu qaydalara vicdanla əməl etməli, beynəlxalq və ölkələrinin qanunvericilikləri çərçivəsində hərəkət etməlidir.

Burada sosial məsuliyyətin bütün aspektləri, xüsusilə, inzibati, hüquqi və əxlaqi məsuliyyət problemləri əhatə olunmuşdur.

Avropa Şurasının mövcud olduğu dövrdə KİV-lə bağlı 20-dən artıq bəyannamə və tövsiyə qəbul etmişdir ki, burada jurnalistin hüquq və vəzifələri, mətbuat azadlığı və sosial məsuliyyət məsələlərinə ciddi diqqət yetirilmişdir. Avropa Şurası Nazirlər Komitəsi (AŞNK) 1982-ci il 29 aprel tarixli 70-ci iclasında "Söz və informasiya azadlığına dair" ilk bəyanatını qəbul etmiş, 2004-cü il fevralın 12-də "Kütləvi informasiya vasitələrində siyasi müzakirələrin azadlığı haqqında Bəyannamə" qəbul etmişdir. Sənəddə jurnalistlərin vəzifəli şəxsləri tənqid edərkən yol verdikləri böhtan və təhqirə görə cinayət məsuliyyətinə cəlb olunması tövsiyə olunur. Bu zaman insan hüquq və azadlığını müdafiə edən Avropa Konvensiyasına əsaslanır, 2000-ci il iyunun 15-16-da Krakovda nazirlərin kütləvi informasiya vasitələrinin siyasi məsəllərinə həsr edilmiş 6-cı Avropa konfransında qəbul edilmiş "Gələcəyin kütləvi informasiya vasitələrinin siyasəti haqqında Bəyannamə"yə istinad edilir, vəzifəli şəxslərin status və vəzifələrini tənzimləyən ölkələrin AŞ üzvlərinin milli qanunvericiliklərini pozmaqla, cəmiyyətin ictimai əhəmiyyətli informasiya əldə etmək hüququnu, ictimai-siyasi hadisələr üzərində ictimai nəzarəti, eləcə də, demokratik cəmiyyətdə zəruri olan siyasi orqanların və dövlət hakimiyyətlərinin hesabatçı və şəffaf olmasını təmin etmək üçün, xüsusilə, azad və müstəqil kütləvi informasiya vasitələrində özünüifadə və informasiya azadlığının böyük əhəmiyyəti təsdiq edilir və göstərilir: "Kütləvi informasiya vasitələri əməkdaşları yadda saxlamalıdırlar ki, özünüifadə azadlığının həyata keçirilməsi zamanı məsuliyyət daşıyır və bu azlığın, qanun çərçivəsində, hüququn həyata keçirilməsi və Konvensiya ilə qorunan başqa əsas hüquqlara, azadlıqlara və maraqlara hörmət arasında balansı saxlamaq üçün məhdudlaşdırılmasının mümkünlüyü yada salınmalıdır".

AŞNK siyasi xadimlər və vəzifəli şəxslər haqqında informasiya verərkən aşağıdakı prinsiplərə riayət olunmasını tövsiyə edir:

kütləvi informasiya vasitələrində özünüifadə və informasiya azadlığı;

dövlət və ictimai institutların tənqidi azadlığı;

açıq müzakirə və siyasi xadimlər üzərində nəzarət;

vəzifəli şəxslər üzərində ictimai nəzarət;

satira azadlığı;

siyasi xadimlərin və vəzifəli şəzslərin nüfuzu və şəxsi həyatı;

Kütləvi informasiya vasitələri tərəfindən hüquq pozuntularına qarşı hüquq-müdafiə tədbirləri siyasi xadimlər və vəzifəli şəxslər, yalnız digər şəxslərin hüquqlarının kütləvi informasiya vasitələri tərəfindən pozulması hallarında istifadə etdikləri müdafiə vasitələrinə malik olmalıdırlar. Diffamasiya və təhqirlərə görə ödəniş və cərimələrin həcmi hər hansı bir şəxsin pozulmuş hüquqlarının və nüfuzuna vurulmuş ziyanın həcmi ilə mütənasib olmalı, kütləvi informasiya vasitələri tərəfindən təqdim olunmuş və maraqlı şəxslər tərəfindən qəbul olunmuş bütün səmərəli və tam uyğun könüllü müdafiə vasitələri nəzərə alınmalıdır. Hüquq pozuntusunun və şəxslərin nüfuzuna dəymiş ziyanın dərəcəsi bunu tələb etmirsə, xüsusilə, məsələn, dözümsüzlüyün ifadəsi kimi məlumatlarla başqa əsas hüquqlar ciddi surətdə pozulmayıbsa, kütləvi informasiya vasitələri tərəfindən diffamasiya və ya təhqirə görə azadlıqdan məhrum etmək olmaz.

Avropa Şurası sosial məsuliyyət konsepsiyasında hüquqi məsuliyyətdən çox əxlaqi-mənəvi məsuliyyətə üstünlük verir. Sosial məsuliyyət konsepsiyası qonşu Rusiyada da xüsusi kodekslə müəyyənləşdirilmişdir. 1994-cü ildə Rusiya Jurnalistlər Konqresi Jurnalist Etikası Kodeksini qəbul etmişdir ki, burada azadlıq və məsuliyyət məsələləri də əsas yer tutur. Kodeksdə bir çox kompleks amillərlə şərtlənən və jurnalistin şəxsi seçim səviyyəsində sosial məsuliyyətinin legitimləşdirilməsi məsələsindən də bəhs edilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## 1 il də yaşasa 1 milyonu olacaq

Vyetnamın ən böyük şəhəri olan Ho Chi Mintdə yaşayan Nguyen Tu Tu adlı qadının tam 122 yaşı var. Dünya Rekordlarının Birliyi Nguyenin dünyanın ən yaşlı qadını olduğu faktını təsdiqləyib. Əgər yaşlı qadın bir il daha yaşayıb 123 yaşına çatarsa, moldovalı iş adamı Dmitri Kaminskiyin vəd etdiyi 1 milyon dolların sahibi olacaq. XIX, XX və XXI əsrləri görən qadın 123 il yaşaya bilsə, dünyanın ən uzun müddət yaşaya bilən insanı kimi tarixə düşəcək. Nguyen 11 uşaq dünyaya gətirib. Hazırla onların yalnız ikisi yaşayır. O ən çox sevdiyi yeməyin plov olduğunu deyir, südlü şirniyyatlar isə həyatında önəmli yerə sahibdir. Ailəsi və onun haqqında araşdırma aparan həkimlər Nguyenin bu günə qədər xəstəxanada yatmadığını, heç bir ciddi xəstəliyi olmadığını deyiblər. "Ginnesin Rekordlar kitabı"na görə bu günə ən uzun müddət yaşayan şəxs Yaponiyada olub və 114 yaşında həyata gözlərini yumub.

## 16 milyard il ərzində vaxtı dəqiq göstərə bilən saat

Yapon alimləri həddən artıq dəqiq işləyən atom saatı hazırlayıblar. Bu saat 16 milyard il ərzində dəqiq vaxt göstərməyə qadirdir və həmin müddətdə onun cəmi bir saniyə xəta etmək ehtimalı var. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, professor Hidetosi Katorinin rəhbərliyi altında Tokio universitetinin mütəxəssisləri qrupu tərəfindən hazırlanan qurğunun əsasına mənfi 180 dərəcəyə qədər soyudulmuş stronsium atomlarından ibarət matrisa daxildir. O, lazer şüalarından ibarət optik qəfəsə qoyulub. Vaxt intervalları isə bu kimyəvi elementin udduğu işıq tezliyi ilə ölçülür. Bu qurğu öz dəqiqliyinə görə hazırda istifadə olunan və "etalon" sayılan atom saatlarını min dəfədən də çox üstələyir.

### ELAN

Sabunçu rayon İcra Hakimiyyəti Maştağa qəsəbəsi üzrə Nümayəndəliyi Yasamal r-nu, Zərdabi küçəsi ev 73, mənzil 110-da yaşayan Qulamov Eldar Şeydulla oğluna verilmiş Maştağa qəsəbəsi "Savalan" yaşayış massivində 85 saylı fərdi yaşayış evinin tikintisi üçün ayrılan sahəsi 1200 kv.m. olan torpağın qərarı, yerləşmə sxemi və katastr planı (Dövlət Torpaq Kadastr kitabında 01.03.2007-ci il tarixli 4076 N-si ilə uçota alınıb) itdiyi üçün etibarsz sayılır

ARDNŞ-nin "Qazma" idarəsinin mühərrikçisi Mahmudov Elçin Əsgər oğluna verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.








## Cənubi Sudandan olan güləşçi "Bakı-2015"də Norveçi təmsil edəcək

Norveç Olimpiya Komitəsinin rəsmiləri güləşçi Qreys Bullenə "Bakı-2015"də iştirak etmək üçün dəvət göndəriblər. SİA-nın məlumatına görə, adıçəkilən idmançı 2014-cü ildə gənclər arasında Olimpiya Oyunlarında 60 kq çəki dərəcəsində qızıl medal qazanıb.18 yaşlı güləşçi 2001-ci ildə 4 yaşında olarkən ailəsi ilə birlikdə Cənubi Sudandan məcburi şəkildə köçmək məcburiyyətində qalıb. Hazırda Bullen və ailəsi Norveçdə yaşayırlar. Bu idmançı müharibənin çətin anlarını yaşayıb və köçkün həyatı sürməyə məcur edilib. Bütün bu çətinliklərdən keçən güləşçi qarşısına çıxan imkanlardan yararlanmağa və qalib olmağa çalışıdığını qeyd edib.

## Qadın karateçilərimiz İstanbula yollanıblar

"Bakı-2015" I Avropa Oyunlarına hazırlığın son mərhələsində olan karate üzrə qadınlardan ibarət milli komandamız İstanbula 28-ci "Bosphorus Open" beynəlxalq turnirinə yollanıb. SİA-nın məlumatına görə, müxtəlif yaş qrupları arasında təşkil olunan yarış mayın 1-dən 3-dək keçirilir. Azərbaycan yığmasından böyüklərdən 5 nəfər kumite, 2 nəfər kata, 2 nəfər isə 16-17 və 18-21 yaşlılar arasında yarışlara qatılacaq. Kumitedə 16-18 yaşlı seçmə komandanın üzvlərindən Ülvi Qurbanov (-60 kq), 18-21 yaşlılardan Sərxan Quluzadə (+84 kq), böyüklərdən Nuranə Əliyeva (-50 kq), İlahə Qasımova (-55 kq), Fəridə Abiyeva (-61 kq), İrina Zaretska (-68 kq) və Aytən Səmədli (+68 kq) döyüşəcək. Kata yarışlarına isə Tural Balcanlı ilə Ədilə Qurbanova qatılacaq. 16-18 yaşlı gənclərdən ibarət seçmə komandanın böyük məşqçisi, əməkdar məşqçi Şahin Xudaverdiyevə məşqçi Denis Morozov kömək edəcək. Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun rəhbərliyi ilə İstanbula yola düşən idmançılarımız mayın 4-də Bakıya qayıdacaqlar.

## PSJ "Yuventus"la 80 milyon avroya anlaşdı



PSJ-nin "Yuventus"un futbolçusu Pol Poqbanı transfer etmək israrı davam edir. "Goal.com"ın verdiyi məlumata görə, Paris təmsilçisi artıq "Yuventus"la razılığa gəlib. Bu transfer üçün PSJ İtaliya klubuna 80 milyon avro ödəyəcək. Fransa klubunun prezidenti Nasser Əl-Xelaifi Monte Karloda Poqba ilə görüşüb. Xelaifi ilə maliyyə məsələsində anlaşa bilməyən fransız futbolçu mövsümün sonunda gələcək təklifləri də gözləmək istədiyini klub prezidentinə bildirib. Qeyd edək ki, PSJ Poqbanın transfer edəcəyi təqdirdə Maliyyə Fair-Play qaydalarına uyğun olaraq futbolçuları - Yohan Kabaye və Ezekiel Lavezzini satmağa çalışacaq.

## Keçmiş futbolçu narkobaron çıxdı



"Real"ın sabiq futbolçusu Freddi Rinkon İnterpol (Beynəlxalq Cinayət Polisi İdarəsi) tərəfindən axtarılır. "Goal.com"un verdiyi məlumata görə, 48 yaşlı keçmiş futbolçu çirkli pulların yuyulması və narkotik ticarətində təqsirli bilinir. 11 il Kolumbiya millisində çıxış edən Rinkon İnterpol tərəfindən qırmızı bülletenlə axtarışa verilib. Kolumbiya mətbuatında yer alan xəbərə görə, Panamada çalışan Rinkon narkotik baronu Pablo Rayo Montano ilə iş birliyini davam etdirir. Qeyd edək ki, F.Rinkon 1995-1996-cı illərdə "Real"ın şərəfini qoruyub.

## "Real" Hazardı transfer edəcək?



"Real" bu mövsüm İngiltərə Premyer Liqasının ən yaxşı futbolçusu seçilən "Çelsi"nin futbolçusu Eden Hazardı transfer etmək istəyir. Bu sensasiyalı xəbərə İngiltərənin "The Sun" qəzeti yazıb. Qəzet iddia edib ki, belçikalı yarımmüdafiəçi London klubu ilə yeni müqavilə imzalamasına baxmayaraq,"Real" 24 yaşlı oyunçunu transfer etməkdə israrlıdır. Bu transfer üçün Madrid təmsilçisinin futbolçusu Qaret Beyli Eden Hazardla dəyişdirməyi təklif edəcəyi də bildirilib. Qeyd edək ki, "Çelsi"nin baş məşqçisi Joze Mourinyo "Real"ın Hazardı transfer edə biləcəyinə inanmadığını bildirib. Hazardın bir ayağının 140 milyon avro olduğunu vurğulayan portuqaliyalı mütəxəssis "Real"ın bu transfer üçün birinci onunla əlaqə saxlamalı olduğunu söyləyib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**